SƏDAQƏT KƏRİMOVA

# QƏLBİNƏ BOYLAN, INSAN

Bakı-2007



# Müəllif haqqında

*Sədaqət Qayınbəy qızı Kərimova 1953-cü ilin martın 30-da Qusarda anadan olmuşdur. 1969-cu ildə Qusar şəhər 1 saylı orta məktəbini, 1974-cü ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir.*

*Əmək fəaliyyətinə 1974-cü ildə "Sovet kəndi" qəzetində müxbir kimi başlamışdır. Uzun illər bu qəzetdə, sonralar "həyat", "Azərbaycan" və "Günay" qəzetlərində müxbir, şöbə müdiri, baş redaktorun müavini vəzifələrində çalışmışdır. 1997-ci ildən Azərbaycan, ləzgi və rus dillərində nəşr olunan "Samur" qəzetinin baş redaktorudur.*

*S.Kərimova Azərbaycan, rus və ləzgi dillərində çap olunmuş minlərlə məqalə, oçerk, korrespondensiya, zarisovka, esse və felyetonlar müəllifidir. Jurnalistika sahəsindəki uğurlarına görə ayrı-ayrı illərdə Azərbaycan Jurnalistlər İttifaqının "Qızıl qələm", həsənbəy Zərdabi adına və Kütləvi İnformasiya Vasitələri həmkarlar İttifaqının Məhsəti Gəncəvi adına və Xan qızı Natəvan adına mükafatları, o cümlədən helsinki Vətəndaş Assambleyası AMK-nin "Sülh" mükafatı ilə təltif olunmuşdur. S.Kərimova 2006-cı ildə "Azərbaycanın əməkdar mədəniyyət işçisi" adına layiq görülmüşdür.*

*Sədaqət Kərimovanın müxtəlif illərdə "Səssiz haray" (Povest və hekayələr. Yazıçı, 1983), "Bir yaz gecəsi" (Povestlər. Yazıçı, 1985), "Qərib quşun nəğməsi". (Şeirlər. Gənclik, 1987), "Ləzginka çal, qardaşım" (Şeirlər (Ləzgi dilində) Azərbaycan,1995), "Köklənsin dünyamız ləzginka üstə" (Şeirlər və poemalar (Ləzgi dilində) Ozan,1997), "Qürub" (Romanlar. Ozan, 1999), "Blajnaya" (Romanlar (Rus dilində) Azərbaycan, 2001), "Soyuq günəş" (Pyeslər və hekayələr (Ləzgi dilində). Ozan, 2000), "Daha bir bahar" (Şeirlər (Ləzgi dilində). Ziya-Nurlan, 2003), "Za semyu qorami" (Şeirlər (Rus dilində). Ziya-Nurlan, 2005) kitabları çapdan çıxmışdır.*

*"Dünyanı məhəbbət yaşadır yenə" müəllifin Azərbaycan dilində çap olunan yeni kitabıdır. Buraya onun son illər yazdığı şeirlər daxil edilmişdir.*

Sevda MIKAYILQIZI,
naşir

## DUYĞULARIN COŞAN SELİ

Sədaqət Kərimovanın poeziyası canlılığı, coşqunluğu, təbiiliyi ilə seçilir. Daha doğrusu, Sədaqətin təbiəti ilə şeirləri ahəngdarlıq təşkil edir. Səmimilik və ürəyəyatımlıq, obrazların və bənzətmələrin özünəməxsusluğu və təkrarsızlığı onun bədii qüdrətidir. Sədaqət həm həyatda, həm də duyğu-duyumlarında sədaqətli, sədaqətli olduğu qədər də səmimidir. O, gah həzin xəyallı, titrək duyğulu, gah da sərt və dönməzdir. Amma nədən yazırsa yazsın, hansı mövzunu qələmə alırsa alsın, həmişə təbiidir. Onun şeirlərində saxta, uydurma misralar görməzsən. Bulaq kimi qaynayan ilhamından doğulmuş poetik duyğuların selinə düşürsən. S.Kərimovanın yaradıcılığındakı təbiət lövhələri bənzərsizdir. Şairdən ötrü dünyanın bütün gözəllikləri doğulub boya-başa çatdığı heyrətamiz təbiətli  Qusardan başlanır. Onun qələmi bizi təbiətin möcüzələrinə qovuşdurur, onların bənzərsiz aləminə aparır. Şairin tərənnüm etdiyi təbiət belədir:

*Sevinib bu gözəl, nazlı qonağa,*
*Dağlar xonça tutdu güldən, çiçəkdən.*
*Təzəcə açılmış tər bənövşənin*
*Titrədi yarpağı əsən küləkdən.*

Yaxud:

*Bir şıdırğı yağış yağır çöllərə,*
*Elə yağır, ucundan tut, göyə çıx.*
*İslanmamış nə bir çəngə ot qalır,*
*Nə dağ qalır, nə dağda bir alaçıqk*

Dağ təbiəti - duman, çiskin, bulud, ildırım, dərə, cığ-

ır, tala, gədik, bulaq, çay, ağaclar, çiçəklər Sədaqət poeziyasının "qanına-canına" hopub. Sərt qayalardan tutmuş zərif çiçəklərə qədər hər şeyə vurğun vətən qızı təbiətin hər lövhəsində yeni obraz görür, onları bədii sözün qüdrəti ilə mənalandırır. Sədaqətin şeirlərində düşüncələr şimşəklə çaxır, sel-selablarla kükrəyir, aşıb-daşır, quşlarla qanadlanır, çiçəklərlə ətir saçır, günəşlə şəfəqlənir.

İnsanı dünyaya bəxş edən ana haqqında tarix boyu şeirlər yazılıb, nəğmələr oxunub. Ana müqəddəsliyi, ana məhəbbəti və ana itkisi Sədaqət yaradıcılığında da bir xətt təşkil edir. Ana həsrətinin həzin pıçıltısı yeni deyimlər və obrazlarla səslənir onun misralarında:

*Bura dağ yeridir, duman yeridir,*
*Anamın yurd yeri, güman yeridir.*
*Astaca yeriyin, yavaşca dinin,*
*Bura daşa dönmüş zaman yeridir.*

İgidlər haqqında çox yazılıb. Aşağıdakı misralarda "boy atan" igidlərsə şairin poetik görüntüsünün ifadəsidir:

*Döyüşə gedəndə gülər igidlər,*
*Odlardan sıyrılıb gələr igidlər.*
*Vətənin qədrini bilər igidlər,*
*Qartaltək zirvədə ölər igidlər.*

Sədaqətin vətənə, doğma yurda, ana torpağa məhəbbətlə qələmə aldığı şeirləri vətənpərvərlik duyğularına bələnmişdir. Onun vətənə məhəbbəti Şah dağı kimi uca, Xəzər kimi dərindir.

Sədaqətin lirik obrazları yaddaqalan, təsirli və orijinaldır:

*Bu gecə nə yaman qəmli gecədir,*
*Uzanır, əlləri sabaha çatmır.*
*Yuxusu çəkilib bəbəklərindən,*

*Görəsən mənimtək neçəsi yatmır?*

Yaxud:

*Nəyi isə, harda isə itirmişəm,*
*Axtarıram yaşım üstə gəldikcə yaş.*
*Mən ömrümə həzin nisgil gətirmişəm,*
*Bu nisgillə qocalıram yavaş-yavaş.*

Hamıya tanış və doğma hisslərin bir özgə yaşantısı var Sədaqətin şeirlərində.

Sədaqətin poeziyasında Azərbaycan dili bütün gözəlliyi və təravəti ilə canlanır. Şeirlərinin dili rəngarəng, aydın və zəngindir. Şairin yeni deyimləri, obrazları, özünəməxsus qafiyə düzümləri xüsusilə diqqəti çəkir. Onun poeziyası ilə tanış olduqca dilimizin bir daha vurğunu oluruq.

Sədaqət nəğməkar şairdir. Onun lirik ovqatı sözlərin musiqisi ilə yadda qalır, mahnıya asan yatır. Elə buna görə də onun onlarca şerinə mahnılar bəstələnib.

*Min şübhə içində, güman içində,*
*Bu sənli dünyadan bezib köçəndə,*
*Bir ağac göyərər könül küçəndə,*
*Həsrətim tökülər budaqlarından.*

Bənzənən də, bənzədilən də təzədir, tapıntıdır - nadir tapıntı. Bu məhəbbətin yollarına dönən misralar insan ürəyinin yanan, yandıran, sevinən, qəmlənən telləridir:

*Bilirdim, haçansa dumana dönüb,*
*Dağdan yavaş-yavaş çəkiləcəksən.*
*Üfüqdə qızaran dan yeri kimi,*
*Bir gün ürəyimdə söküləcəksənк*

Bu məhəbbət Sədaqətin özünə məxsusdur, onun oxşarı yoxdur, olduqca təbiidir.

Sədaqətin təzə-tər şeirlərini oxuduqca, onun mənəvi dünyasının zənginliyinə heyran olursan. Bu poeziy-

anın leytmotivini dünyamız üçün narahatlıq təşкil edir. Şairin bədii qüdrəti onun fiкirlərinin dərinliyi, fəlsəfi məzmunu ilə bağlıdır.

"Bir balaca vaxt tapıb qəlbinə boylan, insan!" - deyən şair bizi düşündürür, həyatın dərкinə çağırır.

Şeirlərindən birində Sədaqət deyir: "Dünyanı məhəbbət yaşadır yenə!" Sabaha səsləyən, arzu və ümidlərə qanad verən səmimi hisslərin, zərif duyğuların selindən yaranmış bu cür poetiк misralar şairin yaradıcılığı haqqında aydın təsəvvür yaradır.

Sevgisi cavandır qoca dünyanın,
Görüşlər, vidalar qoşadır yenə.
Nə yaxşı, min ilər əvvəlкi кimi
Dünyanı məhəbbət yaşadır yenə.

Həqiqətən də, dövran nə qədər ağır olsa belə, dünya yaşayır. Onu insan məhəbbəti, xeyirxah əməllər, ülvi söz yaşadır.

Rüzgar ƏFƏNDİYEVA,
şair

# DÜNYANI MƏHƏBBƏT YAŞADIR

# OLAY

İndiki zamanda cismim yaşayır,
Keçmişim əbədi ruhumdadır, bil.
Öyrəşə bilmirəm indiyə heç cür,
Bu dövran başqadır, mən deyən deyil.

İndiki axınla axa bilmirəm,
Sellərim nə bərə, nə bənd tanıyır.
Niyə hamı kimi ola bilmirəm?
Qoca da, cavan da məni qınayır.

Qaldı o illərdə nəyim vardısa,
İndi nə qalıbdı, qəmdən savayı?
Cığırlar dolanbac, yollar dolayı,
İnsanlar var yığır, çapır, talayır,
Çoxu bir-birini sancır, dalayır.
Hər yanda ədavət meydan sulayır,
Kim isə kiməsə quyruq bulayır.
Günbəgün böyüyür yalan halayı.
İndinin heç nəyi qəlbimə yatmır,
Bəs necə dəyişim mən bu olayı?

# VƏTƏN

Hər yurdun öz havası,
Hər elin öz avazı.
Hər quşun öz yuvası-
Ona deyilər vətən.

Şehdi o, çəndi o,
Canımızla təndi o.
Qibləgah axtarmayın,
Anamız vətəndi o.

Yüz dəfə deməklə can,
Kəsilməz yarada qan.
Sən onun oduna yan,
Onda öyünər vətən.

Yandırsan sobasını,
Hər kiçik obasının,
Öz bayram libasını
Onda geyinər vətən.

Uca tutaq adını,
İtirməyək dadını.
Hər igid övladının
Döyünən qəlbi - vətən.

# İGİDLƏR

Dağların başında ərənlər yaşar,
Һay salıb hayqırar, sel olub daşar.
Qəlbləri bu yurda sevgidən coşar,
Bu eşqlə dolarlar yaşa igidlər.

Döyüşə gedəndə gülər igidlər,
Odlardan sıyrılıb gələr igidlər.
Vətənin qədrini bilər igidlər,
Qartaltəĸ zirvədə ölər igidlər.

Bu eldə gözəllər sevərlər mərdi,
Һər ocaq başında hər oğul ərdi.
Vətənçün can verməĸ burda hünərdi,
Һər biri nər oğlu nərdi igidlər.

Dar gündə elinin dadına çatar,
Düşmənin bağrına ox olub batar.
Vətənə borcunu ruhuna qatar,
Qeyrəti çox uca tutar igidlər.

# BİR HAVA ÇAL

Bir hava çal, bir hava çal, qardaşım,
Bu havanın ruhunu al, qardaşım.
Qanadlansın "Ləzginкa"nın avazı,
Unutdursun dərdi, qəmi, ayazı.
Qol götürüb qoca, cavan oynasın,
Cuşa gəlib damarda qan oynasın.

Çal qardaşım, bir şıdırğı hava çal,
Yallı getsin dərə, təpə, qaya, yal.
Çapım, çapım onun кəhər atında,
Yer titrəsin ayağımın altında.
Zurna, qaval dilə gəlsin zil ilə,
Sevincimi bölüşdürüm el ilə.

## YOL AYRICINDA

Tutulub göy üzü, duman tövşüyür,
Ağaclar yollara xəzan döşəyir.
Soyuqdan titrəyir, canım üşüyür,
Qalmışam küləklə yel ayrıcında.

Əsəndə üstümə bir qəmli nəsim,
Hanı məni duyub anlayan kəsim?
Mən kimdən inciyim, mən kimdən küsüm?
Qalmışam obayla el ayrıcında.

Deyəsən havalar ayaza gedir,
Saçımın qarası bəyaza gedir.
Ömrümün ümmanı dayaza gedir,
Qalmışam ay ilə il ayrıcında.

Dünya başdan-başa oyundur, gülüm,
Hər tora saldığın ovundur, gülüm,
Dərdliyəm, gəl məni ovundur, gülüm,
Qalmışam taleyin yol ayrıcında.

# ÜLFƏT

Bir az qəribəyəm, bir az qəribəm,
Fiкirə, xəyala meyilliyəm mən.
Özüm də bilmirəm, niyə, nə üçün
Ömrümdən bu qədər gileyliyəm mən?

Bir az кədərliyəm, bir az həzinəm,
Kövrəlib doluram bəzən heç nədən.
Anlaya bilmirəm кimdir, nəçidir
Һalımı bu qədər pərişan edən?

Bir az fərəhliyəm, bir az nəşəli,
İçimdə bir dəli istəк dolaşır.
Bir gizli arzunun gizli ocağı
Qəlbimdə xəlvəti yanır, alışır.

Bir az sevdalıyam, bir az atəşli,
Üzümdən, gözümdən səadət yağır.
Bir az vüsallıyam, bir az hicranlı,
Bir yandan həsrətim açır min cığır.

Bir az söhbətciləm, bir az da dinməz,
Kiməsə səhrayam, кiməsə dəniz.
Nədənsə razıyam, nəyəsə möhtac,
Kiməsə yadam mən, кiməsə əziz.

Bir az özümünəm, bir az özgənin,
Bəzən yada doğma, doğmaya yadam.
Həm həssas qəlbliyəm, həm daş ürəkli,
Gah qeyri-adiyəm, gah adi adam.

Qəribə işlərim o qədərdir ki,
Onlardan sənə söz açmadım hələ.
Hər nəyəm, beləyəm, buyam əzizim,
Məni olduğum tək sev, qəbul elə.

# APAR

Cabahlara doğan günəş,
Gəl bu dəfə yolunu az.
Ürəyimin içindən çıx,
Üşütməsin məni ayaz.

Ey dağ baba, üşüyürəm,
Sazaq məni bürüyəcək.
Zirvəndəki o qar kimi,
Qəmim haçan əriyəcək?

Ey dağ çayı, söylə mənə,
Yolun hardan hayanadır?
Dinlə məni, eşit məni,
Sözüm məni duyanadır.

Dağ döşündə açan çiçək,
Mənə bir az sevinc gətir.
Daş bağlamış kədərimi
Əridər bir incə ətir.

Hədər əsmə, ey dağ yeli,
Ürəyimdən qəmi apar.
Xatirələr karvanımdan
Nələr gedər, nələr qalar...

# VAXTSIZ QONAQ

Az istədim, çoxum getdi,
Nişan aldım, oxum getdi.
Gecələrdə yuxum getdi,
Bu sınaq nə sınaq imiş?

Yaz istədim, düşdüm qışa,
Ümidlərim dəydi daşa.
Qazandığım başdan - başa
Tənə imiş, qınaq imiş.

Bir ley idim, qıya düşdüm,
Heyif, səsə, küyə düşdüm.
Keçəmmədim, çaya düşdüm,
Demə körpü sınıq imiş.

Dost bildiyim yağı çıxdı,
Mahnı dedim, ağı çıxdı,
Bu dağ ürək dağı çıxdı,
Dərddən qalaq - qalaq imiş.

Yoxdur artıq ər sandığım,
Varım - böyük dərd sandığı.
Bu dünyada mərd sandığım
Demə vaxtsız qonaq imiş...

## KAŞ BİLƏYDİN

Əzizlənməк istəyəndə,
Tez qaçardım dalınca mən.
Ağlayardım, sızlayardım
Bir təsəlli alınca mən.

Nazlı, şıltaq şiкayətim -
Ürəyimin ağrıması.
Gülüb məni ovudardın:
"Ürəyin heç ağrımasın".

Amma o vaxt bilməzdim кi,
Ürəк nədir, ağrısı nə?
Sözün düzü, bir dəfə də,
Görməmişdi ağrı sinəm.

Bir gün dünya ürəyimi
Fiкirlərlə tanış etdi.
O gündən də uşaqlığım
Əllərimdən uçub getdi.

İndi tutan ağrıları
Gizləsəm də, xəbərdarsan.
Onlar mənim ürəyimə
Һeç bilmirəm girir hardan?

Düşünürəm, ömür yenə
O dəmlərə qayıdaydı.
Qucağına alıb məni
Əvvəlki tək ovudaydın.

Mən yalandan ağrıyaydım,
Sən yalandan kövrələydin.
O zamankı qayğına mən
Nə həsrətəm, kaş biləydin.

# ŞAh DAĞI

Bu  görünən Şah dağıdır,
Çatdım daha muradıma.
Heyrət dağı, ”Pah” dağıdır,
Şükür olsun yaradana.

Əzəmətdən duruşu şax,
Kim deyir ki, ah dağıdır?
Külək bəyaz buludları
Gah gətirir, gah dağıdır.

Ey Şah babam, qoca dağım,
Saxla məni qucağında.
Qartal olub yuva qurum,
Bir əlçatmaz bucağında.

Vaxtsız gəlmiş qonağınam,
Ey tək qalmış qardaş dağım.
Gəl dərdləşək, söhbətləşək,
Ol mənimlə sirdaş, dağım.

Enişlərdən yorulanda
Can atmışam zirvənə mən.
Dağ olmağın sirrlərini
Bircə - bircə aç mənə sən.

Ovut məni, toxtat məni,
Sal boynuma qollarını.
Öyrət mənə tufanlara
Sinə gərməк yollarını.

Dözüm öyrət mənə, dağım,
Şığıyanda şaxta, sazaq.
Yalanlardan, yamanlardan
Uzaq elə məni, uzaq.

İstəmirəm buludun təк
Baş olmağı, boşalmağı.
Bu sərt, bu sərp qayan кimi
Öyrət mənə daş olmağı.

Sənə həmdəm bir daş olum,
Qaldır məni o zirvənə.
һeç olmasa, uca dağım,
Bunu məndən əsirgəmə.

# ODLAR QIZI

Desəm ürəyimdə ümman yerləşər,
inanma mənə.
Desəm кi, qəlbimə cahan yerləşər,
inanma mənə.
Əngin səmaların gözüyəm desəm,
yalan olar bu.
Süzgün şahinlərin özüyəm desəm,
yalan olar bu.
Ürəyim atəşdir, alovdur desəm,
qınama məni.
Közsüz alışaram, odsuz yanaram,
sınama məni.
Doğma Azərbaycan - Odlar diyarı
məhəbbətimdir,
Mən Odlar qızıyam, alışıb yanmaq
təbiətimdir.

## DOĞMALAR

Kirpiyim qovuşmur, gözüm yumulmur,
Bir ağrı qəlbimi dağıdır, didir.
Bu dərdli halımı nə kimsə görür,
Nə də qəribliyim əl çəkib gedir.

Xətrimə toxundu bir doğmam mənim,
Qəlbimi sındırdı o, bilə-bilə.
Köksümə sağalmaz bir yara vurdu,
Üstündən duz basdı o, gülə-gülə.

Bu da bir qismətdi, doğmalarımdan
Mənə ömrüm boyu ağrılar çatır.
Sonra qərq oluram qəm dəryasına,
Fikirlər aylarla başımı qatır.

Özgədən elə bir xətər toxunmaz,
Özgə evmi yıxar, qəlbmi ağrıdar?
Çağırsam, hər ötən haraya yetər,
Nə könül dağlayar, nə göz ağladar.

Nələr çəkməmişəm yaxınlarımdan...
Bunu mən bilirəm, bir də yaradan.
Ağrını, acını unutmaq üçün
Dözümü bilmirəm alım haradan.

Özgələr adamı yandırıb yaxmaz,
Özgədən adama bir pislik gəlməz.
Doğmanın doğmaya elədiyini,
Yüz düşmən yığılsa, eləyə bilməz.

## QÜRBƏTDƏN GƏLƏN QONAQ

Ey qürbətdən gələn ellim,
De, halın nədən pərişan?
Yadındamı, bu yerləri
Tərк eylədin sən o zaman.

Uzaq eldən gələn qonaq,
Xoşmu кeçir söylə günün?
Doğman varmı, çağıranda
Gedib çatsın səsin, ünün?

Qərib yerdən vətən adlı
Qibləsinə dönən qonaq,
Bu torpağın hər qarışı
İndi sənə olub qınaq.

Vətənini darda qoyub
Uzaqlara gedən zaman,
Bağrı yara ana torpaq
Diləyirdi səndən aman.

Doğma yurddan yad diyara
Gözü yaşlı dönən qonaq,
Bilmirsənmi, övladını
Çətin gündə Vətən sınar.

İndi sənin hər şeyin var,
İndi sənin heç nəyin yox.
Sərhəddən sərhəddə gedən
Ruhun acdır, cisminsə tox.

Ey qürbətə dönən qonaq,
Necə qəmli, pərişansan.
İnanmırsan, doğma yurda
Qayıdasan sən haçansa.

# NƏ XOŞ TƏSADÜF

Nə gözəl görüşdür, nə xoş təsadüf!
Durmuşuq göz-gözə, dodaq-dodağa.
Mənim ürəyimin döyüntüləri
Sənin ürəyində dönür bulağa.

Əzizim, istəklim, sevgilim şeir,
Heç kimsə duymadı məni sən qədər.
Yarıma qovuşum, vüsala çatım,
Yaxamdan əl götür, uzaqlaş, kədər!

Ayrılıb dünyanın qayğılarından,
Qoynuna sığınım həsrətli kimi.
Cavab ver titrəyən dodaqlarınla:
Səni mənim qədər kimsə sevibmi?

Kükrəyən çay kimi coşum, çağlayım,
Səni əzizləyim, sevim dəlicə.
Misralar dilimdən qopana qədər,
Şerim qəlibinə dolana qədər.
Uzansın bu dadlı, nəşəli gecə.
Nə gözəl görüşdür, nə şirin gecə!

# QƏM ACI

Yetişib çiçək dəmi,
Xəyalım çiçəkdəmi,
Ətirli çiçəkdimi
Saçlarının qulacı?

Göz - yaşa bənd, dərd - himə,
Dərdimi açım kimə?
Bu sahilsiz dərdimə
Һardan alım əlacı?

Ürəyimdə qəm - acı.
Sənsiz keçən dəm -acı.
Ey tamahsız, tox könlüm,
Nədən oldun qəm acı?

# SÖZ QILINCIM

Dünən bir məclisdə sözümü dedim,
Mənası beləydi: "Qurani - Kərim"
Üç şeyi kişiyə günah buyurur:
Sözləri qiymətli, mənası dərin.

Qədrini bilməsən ata-ananın,
Əgər tay tutmasan o tək Allaha,
Layiqli dəfn edib, xatırlamasan,
O zaman batarsan böyük günaha.

Hörmət eləməyib, qiymət qoymayıb,
Ömür yoldaşına xəyanət etsən,
Çəkilər evindən ruzi, bərəkət,
Beləsə, o evdən vaxtında get sən.

Övlad qayğısını çəkəsən gərək,
Böyüyüb ərsəyə çatana qədər.
Bu borcu ödəyə bilməyən kəsi
Qisməti ürəkdən pərişan edər.

İnsan ömrü boyu bu üç borc üçün
Əlləşib, vuruşub çarpışmalıdır.
İnsan ürəyində bu üç diləyin
Ocağı əbədi alışmalıdır.

İstərdim səsimi eşitsin hamı,
Yan keçsin bu böyük günahlar bizdən.
İnsanlıq borcunu verə bilək ki,
El-oba içində düşməyək gözdən.

Kiminsə xətrinə dəymişəm deyən,
Özüm də bilmədən düşüb hədəfə.
Bir yaxın qohumum dartıb özünü
Baxmaq da istəmir ta mən tərəfə.

Gizlətmək istəyir öz pərtliyini
Başqa bir tanışım mənə söz atıb.
Onun bu halını sezməmək olmur,
Yəqin ki, hansısa günaha batıb.

Görəsən gecənin o vaxtı məndən
Neçəsi incidi, neçəsi küsdü?
Neçəsi eybini gördü təzədən,
Mənim söz qılıncım nə yaman kəsdi!

## NİGARAN

İndiкi ağılla, indiкi qəlblə
Yenidən dünyaya gəlsəydim əgər,
Bu yaşı bilinməz ömür evinə
Niyə gəldiyimi bilsəydim əgər,

Mən nələr etməzdim, nələr, ah nələr,
Mənasız günləri ömrümdən silər,
Ağrılar üstündən addımlayardım,
Xoşbəxt günlərimi salamlayardım.

Bu həyat adlanan zaman yolunu
Bir qədər səbrlə кeçə bilsəydim,
Yalanı doğrudan, yaxşını pisdən,
İnsanı adamdan seçə bilsəydim,

Günlərim narahat кeçməzdi belə.
Eh, bütün bunları mən bilə-bilə,
Səhvlər içində azıram bəzən,
Ayağım altında dağ olur düzən.

Yenidən dünyaya gəlsəydim əgər,
Görəsən mən кimə oxşardım onda?
Kimə кönül verib кönlünü alar,
Kimi əzizləyib oxşardım onda?

Yenidən dünyaya gəlsəydim əgər,
Dünya öz yerində olardı görən?

Bu həyat, bu ömür, bu qəm, bu sevinc
O vaxt da dünyada qalardı görən?

Qocalar tədbirli, yaşlılar həlim,
Cavanlar gözəlliк, eşq həvəsində.
Uşaqlar çağlayan gur şəlalələr,
Körpələr həyatın saf nəfəsində.

Adicə qayğılar, adicə günlər,
Görüşlər, vidalar, bəzən gileylər
Olacaq görəsən o vaxt dünyada?
Qalacaq görəsən o vaxt dünyada?

Yaxşı da, yaman da həmişə qoşa,
Sevgi, nifrət ilə girib yarışa.
Xeyir-şər elə bil verib baş-başa
Bu qoca dünyada, ulu dünyada.

Yenidən dünyaya gəlməк istəyim?
O zaman dünyadan nələr istəyim?
к Elə bil az imiş dünyanın dərdi,
Elə bil bizim təк gəldi-gedərdi.

Div кimi şüşəyə salınıb canı,
Düymələr izləyir indi cahanı.
Bəşər övladının nədir niyyəti?
Niyə hədələyir bəşəriyyəti?

Dünya fiкirlərin məngənəsində,
Ürəкlər narahat, gözlər nigaran.
İntizar içində, qorxu içində

Hər yeni səhəri gözlər nigaran.

## QƏRARSIZAM

Ağrı çəkən ana kimi qərarsızam,
Gecə-gündüz ağrı gəzir bədənimdə.
Gözlərimdə,
Əllərimdə,
Ürəyimdə
ağrı  gəzir.
Səhər - axşam,
Axşam - səhər,
Ağrım - kədər,
Ağrım - qəhər,
Ağrım - zəhər.
Gah çoxalır,
Gah yoxalır
Acılarım, ağrılarım.
Sonra dəli sellər kimi yenə gəlir...
Bir ağ vərəq, bir də qələm
Axtarıb tapana qədər
Ürəyimi dəlir, dəlir.
Yazıb-yazıb,
Fikirlərdə azıb-azıb,
Qara bulud yağışını tökən kimi,
Sular yerin sinəsinə çökən kimi
boşalıram.
Sonra yenə dərdli, qara daş oluram...

## DÜNYA

Kimi кefindən azar,
Kimininкi ahuzar,
Kim udar, кim uduzar,
Sanкi bir yarış, dünya.

Baş əydirmə qədərə,
Vermə ömrü hədərə,
Mənim də bircə кərə
Һalımı soruş, dünya.

Atdığın кəmənd yetər,
İşlətdiyin fənd yetər,
Yanıltdığın zənd yetər,
Mənimlə barış, dünya.

# QƏRİB QUŞUN NƏĞMƏSİ

Uşaqlıqda anam mənə
Bir əhvalat danışardı.
Biri vardı, biri yoxdu,
Adsız, qərib bir quş vardı.

Səhər-axşam o qərib quş,
Oxuyardı həzin-həzin:
”Yaxşı-pisin, pis-yaxşının,
Pis-yaxşının, yaxşı-pisin”.

Bu nəğməni кim eşitsə,
Közsüz, odsuz alışardı.
Yaxşı pisə qismət olar,
Pis - yaxşıya qovuşardı.

Yaxşı pislə кədər yeyər,
Pis yaxşıyla qəm içərdi.
Bax, beləcə ömür ötər,
Bax, beləcə gün кeçərdi.

Bəzən quşun dili çaşar,
Oxuyardı yana-yana:
”Pis - pisindir, ey insanlar,
Yaxşı çatsın yaxşısına”.

Pis tapardı tez tayını,
Qismətiylə barışardı,

Yaxşı yara yaxşı yarı
Allah! Necə yaraşardı!

Sonra o quş qayıdardı
Yenə adi nəğməsinə:
"Pis, hardasan? Yaxşını tap!
Yaxşı yetsin öz pisinə!"

Anam belə danışanda,
Qəm dolardı gözlərinə.
Sehirlənib qarışardım
O nəğmənin sözlərinə.

Düşünərdim gecə-gündüz:
İnsafsız quş nədən belə,
İnsanları qovuşdurur
Bu qəribə bölgü ilə?

İllər ötür, o sualsa
Qopmaq bilmir yaddaşımdan.
Zaman кeçir, yenə qoşa
Yaşayacaq yaxşı-yaman.

# SEVİNCDƏN ŞEİR DOĞULMAZ

Sevincdən şeirlər doğulmaz, gülüm,
Şadlıqdan, fərəhdən şeir göyərməz.
Toxluqdan, varlıqdan, firavanlıqdan
Kimsə söz toxumaz, şeir əyirməz.

Şeir qəmdən doğar, кədərdən doğar,
Fıкirdən su içər, boy verər misra.
İlham qanadında çapanda кönül,
Elə bil yox olar, dağılar əsrar.

Bilməz qəm yüкünün ağırlığını
Ehtiyac bilməyən, ağrı çəкməyən.
Bilməz məhəbbətin dərd olduğunu
Qəlbinə ayrılıq çəni çöкməyən.

Şeir də qayıqdır qəlb dənizində,
Üzür, çata bilmir öz sahilinə.
Һanı bir qüvvə кi ayıra bilsin
Şair baş vuranda öz daxilinə.

Elə doğular кi, ürəкdə şeir,
Əsər кüləк кimi, gələr yel кimi.
Qəfil yağış кimi birdən başlayıb,
Kəsər yolu, izi dəli sel кimi.

Şeirin də qışı var. Şaxta düşəndə
Üşüdər dünyanı soyuq qarıyla.
Arabir bahar tək ürək oxşayıb,
Nələr bağışlayar, nələr barıyla.

Ötəri eşq kimi hərdən olur bu,
Sonra adi günlər başlanır yenə.
Yenə ilham çapır söz mənzilinə,
Kədərdən qurulur yenidən binə.

Sevincdən şeirlər doğulmaz, gülüm,
Şadlıqdan, fərəhdən şeir göyərməz.
Toxluqdan, varlıqdan, firavanlıqdan
Kimsə söz toxumaz, şeir əyirməz.

## BURULĞAN

Gecə yuxuda da narahatam mən,
Səhər oyananda yenə narahat.
Gündüz yoxa çıxır səbrim, qərarım,
Dərdli fikirlərdi axşamlar yarım.
Mənim rahatlığım olub çapar at.

Düşmüşəm özüm öz burulğanıma,
Görən çoxmu qalıb durulmağıma?

# İSLANMIŞIN NƏ QORXUSU

Ağladın, məni, ağladın,
Gözümdə yaş çoxdu hələ.
Dərd çəkməkdə yoxdur tayım,
Salın məni dildən - dilə.

Ağladın, məni ağladın,
Dəryalar kimi çalxadın.
Sinəmi yüz yol dağladın,
Dağlarımı bilə - bilə.

Kim deyər ki, bekar oldum,
Dünyama dərd tikər oldum.
Sinəmdə ah gəzər oldum,
Gözlərimdən gülə - gülə.

Hər yalanın var doğrusu,
Hər divanın var sorğusu,
İslanmışın nə qorxusu,
Atın məni seldən-selə.

## MÖCÜZƏ OLAYDI

Ölüb diriləydim кaş bircə кərə,
Görəydim yoxluğum кimə dərd olub.
Məni кim unudub, məni кim anır,
Mənim кədərimə кim büлənd olub.

Biləydim, dalımca nələr deyilir,
Kimə doğma idim, кimə yad idim?
Bəlкə gərəк idim neçələrinə,
Bəlкə də eləcə quru ad idim?

Bəlкə varlığımla, yaşamağımla
Kiminsə yerini dar eləmişəm?
Bəlкə bu dünyada  qədirbilməzi
Özümə istəкli yar eləmişəm?

Qohumlar yanında, dostlar içində
Günahım, təqsirim nə qədər imiş?
Ey ömür yoldaşım, səndən ötəri
Yanmağım gərəкmiş, ya hədər imiş?

Kimi incitmişəm bilməyərəкdən?
Һarda büdrəmişəm, harda azmışam?
Bəlкə bu ömrüm də həzin havaymış,
Mizrabı çalmayan sınıq sazmışam?

Ölüb diriləydim. Kaş ki bir kimsə
Xəbər tutmayaydı bu vaqiədən.
Cavab axtaraydım suallarıma:
- Niyə yaşamışam? Nə üçün? Nədən?

Seyrinə dalaydım mənsiz dünyanın,
Biləydim nə imiş sevinc-kədəri.
Ən şirin nemətsə yaşamaq imiş,
Əgər itirməsən, bilinməz qədri.

Möcüzə olaydı göz görə-görə,
Ölüb diriləydim kaş bircə kərə...

# DOSTUM QƏLƏM

Dostum qələm, söylə sənə nə olub?
Niyə uzaq, niyə kənar gəzirsən?
Bəlkə məndən incimisən, küsmüsən?
Ürəyimi nədən belə üzürsən?

Bu dünyanın hər üzünü görmüşəm,
Şəfasını, cəfasını dadmışam,
Nə qədər dost qazanmışam həyatda,
Neçəsini ürəyimdən atmışam.

İtkilərə öyrəşmişəm beləcə,
Qəhərimi uda-uda dözmüşəm.
Səhər-axşam məni didən, göynədən
Ağrını da əllərimlə əzmişəm.

İllər boyu ürəyimdə bəslənən
Sevgimi də bağışladım bir yada.
Xəyanətə, dönüklüyə dözmüşəm,
Bircə sənsiz yaşamaram dünyada.

Nə qəlbimə toxunmusan bir kərə,
Nə sözümü, söhbətimi yozmusan.
Aləm yatıb şirin yuxu görəndə,
Sən mənimlə səhərəcən yazmısan.

Dostum, elə zənn etmə ki, usanıb,
Birdəfəlik tərk etmişəm qələmi.
Sənsiz inan, fikir yükü çəkilməz,
Bu dünyanın saya gəlməz dərd-qəmi.

## YAZ SƏHƏRİ

Əlvan bir top kimi saldım əlimdən
Ötən saatları, ötən günləri.
İstədim uşaq tək geri döndərəm,
Peşiman, əliboş qayıtdım geri.

Elə bil yarpaqdı şən uşaqlığım,
Küləklə uçmuşdu bir yaz səhəri.

# QALAYDIM KAŞ...

Uzaqlarda,
əl çatmayan, ün yetməyən
dağ döşündə,
Ay yer ilə görüşəndə,
Çiçəklərin gözlərinə
şeh düşəndə,
Yarpaqların izlərinə
meh düşəndə,
Başı haça qaya altda,
Yalqız, tənha bir məkanda
Üşüm-üşüm üşüyən bir qovaq gördüm.
O qovağın kölgəsində
Sızım-sızım sızlayan bir bulaq gördüm.

O qovağı yelləndirir
Qərib yellər əsim-əsim.
O bulağı dilləndirir
Tənha qovaq həzin-həzin.
O bulağın sularını içmək üçün
Təşnə qovaq oda-közə vurur özün.
O qovağın qədəminə
Düşüb bulaq - dizin-dizin.
O bulağın dodağına
Toxunanda zərif tellər,
Qısqanclıqdan ağlar otlar,
ağlar güllər.

Yel ağzında zərif qovaq
əsir, əsir...
O bulağın qərarını
kəsir, kəsir...
Ətraf sirli bir yuxuda,
Ətraf dadlı bir qoxuda.
Bulaq - qovaq,
Qovaq - bulaq.
İstəyə bax, sevgiyə bax!
Necə həsəd çəkməyəsən?
Bu sevginin hüzurunda
De, necə diz çökməyəsən?
O qovağın kölgəsindən
O bulağın sinəsinə
Gözlərimdən süzülür yaş.
Qovaq olub bu bulaqda
qalaydım kaş!

## GÖRÜŞ

Sənin görüşünə gəlmişəm, ana,
Bu görüş ağrıdır, bu görüş ağır.
Mənim ürəyimə qapqara кədər,
Sənin məzarına bəyaz qar yağır.

Mən hardan biləydim, nədən biləydim,
Səni əllərimdən alacaq ölüm.
Bir gün qapımızdan girib içəri,
Ayrılıq nəğməsi çalacaq ölüm.

Bilsəydim, ölümlə cəngə çıxardım,
Bilsəydim, ölümə sinə gərərdim.
Bilsəydim, göz diкib sənə, ay ana,
Ölümü gözündən güllələyərdim.

Varlığın bayrammış, bilməmişəm mən,
Yoxluğun bildirdi bu həqiqəti.
Analı quzuydum, xınalı quzu,
Tapıb itirmişəm bu səadəti.

Sənin görüşünə gəlmişəm, ana,
Bu görüş ağrıdır, bu görüş ağır.
Mənim ürəyimə qapqara кədər,
Sənin məzarına bəyaz qar yağır.

## HƏSRƏT

Vaxt vardı, gecələr yataqxanada
Oxuyub-yazardım səhərə qədər.
Bir şirin qafiyə tapdığım anda,
Sanardım, həyatda yoxdur qəm, кədər.

Vaxt vardı, mənimçün mənasız idi,
Nə qədər yeməyim, haçan yeməyim.
Ən dadlı təamım pendir-çörəкdi,
Yadıma düşməzdi ”acdım” deməyim.

İкicə paltarım olardı mənim,
Üçüncü barədə düşünməzdim heç.
Doğrusu, pulum da olmazdı alım,
Nə cür geyindiyim bilinməzdi heç.

Necə də gözəldi gəncliк çağlarım,
Bahar çiçəyi təк tərdi fiкirlər.
Ağlıma gəlmirdi, qəlbi qaralar
Hardasa namərdliк tumu əкirlər.

Paltar şкafımda azıram indi,
Hansını geyinim, hansını seçim?
Heç biri qəlbimi şad etməyəcəк,
Könlümdə sevinc yox, ağlayır içim.

O кasıb tələbə həyatım üçün
Yamanca göynəyir burnumun ucu.
Mətbəxim doludur naz-nemət ilə,
Fiкrimsə o uzaq illərə uçur...

## BİR LEYSAN YAĞIŞIYAM

Odumu, alovumu
Soyutmaz qış nəsimi.
Tufanlı, fırtınalı
Ağlamaq həvəsimi
Çin etmək istəyirəm.

İçimdə qəm daşlaşıb...
Daşlarla yağam gərək.
Onları ürəyimdən
Atam, dağıdam gərək.

Görən onda əzabım
Bitərmi, tükənərmi?
Görən onda qəlbimdə
Dan yeri sökülərmi?

Bitərmi başdan aşan
Məzəmmətlər, tənələr?
Yorularmı görəsən
Söz üyüdən çənələr?

Görən haçan usanar
Yalan evi hörənlər?
Yalan əkib, cücərdib,
Yalan barı dərənlər?

Yalan baramasından
Çıxan ağ кəpənəкlər,
İftiradan cücərib
Uzanan boz tənəкlərк

Qara yellər, кüləкlər,
Qorxulu, pis кələкlərк
Bu yabançı ələкlər
Ələnib bitənəcən,
һaqq taxta yetənəcən
Ağlamaq istəyirəm.

Dönüb dəli şimşəyə
Çaxmağım gəlir yaman.
Bəndləri, bərələri
Yıxmağım gəlir yaman.
Bir leysan yağışıyam,
Yağmağım gəlir yaman.
Ağlamaq istəyirəm,
Ağlamaq istəyirəm.

# YUXU

Bir qəmli yuxu gördüm:
Guya tənha qayığam.
Birdən qayıq çevrildi,
Döndüm kiçik balığa.

Mənim bu dönüşümdən
Kimsə xəbər tutmadı.
Məni ovlamaq üçün
Bir kimsə tor atmadı.

Dənizdən seyr elədim
Sahildəki evimi.
Mən əsiri olmuşdum
Dəniz adlı sevgimin.

Mənim balıq həyatım
Başlandı bax beləcə.
Mənim balıq taleyim
Oldu acı gülməcə!

Yuxudan oyananda
Bildim gecə yarıdır.
Ürəyimlə danışdım,
Gördüm tamam yaradır!

Boylandım кeçmişimə
İllərin arxasından.
Titrəк xatirələrin
Yapışıb yaxasından
Silкələdim o кi var,
Dedim, danış, nə olar.

Könlümdə gizlətdiyim
Arzular gəldi dilə.
Bir səsə, bir nəfəsə
Bürünmüşdüm mən eləк

Qaldı tənha qayığım
Görən hansı  bərədə?
Onu soraqlayıram
İndi xatirələrdə.

# O ZAMAN

Yaşanan hər günüm ayırır məni,
Qəlbimin bal dadan duyğularından.
Həsrətim boylanır bənövşə kimi,
Sevincli, kədərli qayğılarımdan.

Yıxıldım bir səhər ötən illərin
Uşaqlıq adlanan şıltaq atından.
İtirib hər şeyi anladım ki, mən,
O gözəl zamanlar çıxmaz yadımdan.

Bir nisgil qəlbimi yaman ağrıdır,
Doyunca oynaya bilməmişəm mən.
Kimə sübut edim, kimə anladım,
Dünyaya vaxtında gəlməmişəm mən.

Hanı o göy çəmən, o çöl, o cığır?
Ora qoşa düşüb ayaq izimiz.
Dəcəllik edəydik əvvəlki kimi,
Dəyib qanayaydı yenə dizimiz.

Kaş dönə biləydim keçən günlərə,
Anama sığınıb uşaqlaşaydım.
Xəbərsiz olaydım yazı-pozudan,
Fikirdən, xəyaldan uzaqlaşaydım.

Bəlкə bir nağılmış o gözəl dəmlər!
Dindi ürəyimin incə telləri.
Bilmədim, nə zaman əlimdən uçdu
O xoşbəxt, qayğısız məктəb illəri…

Necə gec кeçirdi illər o zaman...
Böyüməк ən böyüк istəyim idi.
Qayıdıb yenidən uşaq olmağa,
Nəyim var, hər şeyi verərəm indi...

## SƏBR

Müdrikl ər söyləsin, aqillər desin,
Səbrdən qiymətli nə var dünyada?
Hər kəsin toruna düşə bilməyən
Bir qızıl balıqdır səbr dünyada.

Səbr sükut kimi - səssiz-səmirsiz,
Onunla açılar bağlı qapılar.
Sağalmaz ən yüngül mərəz - səbrsiz,
Səbr elə, hər dərdə dərman tapılar.

Acıq da, qəzəb də vaxtsız qonaqdır,
Səbr ev yiyəsi, qapını açan.
O hardan bilsin ki, qərib qonağın
Gəlişi nə vaxtdır, gedişi haçan?

Səbrsiz düz yolda büdrəyər adam,
Keçilməz yolları səbrlə keçər.
Balın ləzzətini bilməyən adam,
Səbrlə suyu da şərbəttək içər.

Səbr də elmdir, qədimdən qədim,
Onun əlifbası, qaydaları var.
Amma nə məktəbdə keçilir bu fənn,
Nə də ki öyrədir ata-analar.

Bizi müdrikliyə çağırır zaman,
Yaşımız üstündən yaş adladıqca.
Səbrli olmağı öyrənir insan,
Dərdi yaşadıqca, qəmi daddıqca.

## ANA

Dünyada nə qədər şirin kəlmə var,
Adının yanına düzürəm, ana.
Döşdən ayrı düşmüş körpə uşaq tək,
Dərdinə çox çətin dözürəm, ana.

Ay ana, can ana, mehriban ana,
Özünə, sözünə mən qurban, ana,
Bu düşmən ayrılıq, bu yağı hicran
Girdi aramıza haradan, ana.

Sevənim olmayıb məni sən qədər,
Məni sənin kimi duyan hardadır?
Məni özüm kimi qəbul eləyib,
Mənə sənin kimi yanan hardadır?

Ömrümü bəzəyən sevginmiş sənin,
Ah, elə kasıbdır indi həyatım.
Anasız günlərim əzab, işgəncə,
Analı günlərə necə qayıdım?!

# SƏFƏR ÜSTƏ

Qatarından qalan quşam,
Yurdum uzaq, yuvam soyuq.
Bu dünyada qəm udmaqdan
Köksüm olub oyuq-oyuq.

Dərdlərimə gərib sinə,
Bu gün coşub-daşam gərək.
Bu enişi, bu yoxuşu,
Bu zirvəni aşam gərək.

O dağların ətəyindən
Əsib gəlir soyuq nəsim.
O yad eldə, yad məkanda
Tənhayam, yoxdur bir kəsim.

Mən ki dilbilməz bir quşam,
Necə açım ürəyimi?
Yadlardan yox, doğmalardan
Kimə deyim gileyimi?

Səhər-axşam, gecə-gündüz
Həzin-həzin ötməyim var.
Yar köksümə yara vurub,
Bu yerlərdən getməyim var.

Qərarsızam, səfər üstə,
Nə gələn var, nə gedən var.
Heç bilmirəm hansı səmtə
Aparacaq məni yollar?

Qatarından qalan quşam,
Yurdum uzaq, yuvam soyuq.
Bu dünyada qəm udmaqdan
Köksüm olub oyuq-oyuq.

# BİLMİRƏM

Mən niyə beləyəm, niyə bilmirəm,
Bir gün ağlayıram, bir gün gülürəm.
Bir gün alışıram, bir gün sönürəm,
Bir gün yaşayıram, bir gün ölürəm.

Dünyaya gələndən bir gözüm yaşdır,
Yollarım daima çınqıldır, daşdır.
Nə olsun, hisslərim sel olub daşır,
Sözümü hər кəsə deyə bilmirəm.

Çoxu düşünür кi, əlim baldadır,
Daha demirlər кi, başım qaldadır.
Ürəyim üzülüb, yaman haldadır,
Mən yuxu bilmirəm, röya bilmirəm.

Qonub xəyalıma Şahdağın çəni,
Dil açıb danışır saçımın dəni.
Uşaq da asanca aldadar  məni,
Mən niyə naşıyam, niyə, bilmirəm.

İndi əhvalımı, halımı soran,
Həmdəmim, sirdaşım olub dağ, aran.
Yüz ağrı-acını mənə daddıran
Bu gidi dünyadan doya bilmirəm.

Heç məni çəкmədi dünyanın varı,
Qələmimi mənə çox görmə, Tanrı!
İlhamdır ruhumun nübarı, barı,
Onsuz bu dünyanı duya bilmirəm.

# ÜRƏK

Nadan mənə ağıl verir, dərs öyrədir,
Naşı mənə yol göstərir, qəribədir.
Deyir dünya binəsindən vəfasızdır,
Deyir, həyat axar sudur, gəlib-gedir.

Cən min cildə girib çıxan yaltağa bax!
Qürrələnib söhbət açır vüqarından.
Bir qəpiyi qardaşından əsirgəyən,
Ona sözdə saray tikir öz varından.

Qorxaq mənə igidlikdən min dəm vurur,
Namərd gəlib "mərdlik" deyə dil-dil ötür.
Bir-birindən seçilməyən boz günlərim
Nədən deyir: sevinci qoy, qəmi götür.

Nə zamandır köksümdə ağrılar gəzir,
Bu ağrılar könlümü nə yaman əzir!
Yazıq ürək, yumruğumdan kiçik ürək,
Dağdan böyük ağrılara dözür, dözür...

# HAY VERƏCƏK

Hər kiçicik uğuruma
Anam elə sevinərdi!
Dost-tanışın arasında
Ağız dolu öyünərdi.

Məni qayğılı görəndə,
Sanki dönərdi yumağa.
Göz yaşını axıdardı
Qəm-kədərimi yumağa.

Ayağıma daş dəyəndə,
Məndən qabaq bilərdi o.
Bir çətinə düşsəm əgər,
Çağrılmamış gələrdi o.

Mənim kimi bax, beləcə,
Qardaşlarım, bacılarım
Bölüşərdilər onunla
Ağrıları, acıları.

Ürək dolu gülər anam,
Ürək dolu ağlayardı.
Adi bir şey bəzən onun
Sinəsini dağlayardı.

Bu böyük dünyada yalnız
Bizim üçün yaşayardı.
O, çiynində ömür boyu
Övlad yükü daşıyardı.

Nə biləydik, belə-belə
Ürəyini əridirik.
İnfarkt adlı bir zəlini
Bədəninə yeridirik.

...Dünya durur öz yerində,
Yaşayırıq əvvəlki tək.
Heyif, anam hayımıza
Bir də heç vaxt gəlməyəcək.

Barı öz son mənzilində
Rahatdımı əziz anam?
Qayğılardan, fikirlərdən
Uzaqdımı əziz anam?

Yox, orda da narahatdır,
Yuxularımdan agahdı.
Deyir, sizə əlim yetmir,
Qismətim fikirdi, ahdı.

Şad günümdə, bəd günümdə
Tez yuxuma girir anam.
Şərik olur sevincimə,
Ya təsəlli verir anam.

...Dünya durur öz yerində,
Yaşayırıq əvvəlki tək.
Amma anam səsimizə
Yuxularda hay verəcək.

# QUSARIM

Salam, doğma Qusarım,
Mənim əziz diyarım.
Darıxmışam səninçün,
Ay istəklim, ay yarım.

Nə vaxtdır aralıyam
Sənin isti qoynundan.
Ərköyün uşaq kimi
Qoy sallanım boynundan.

Doğulub böyüdüyüm
O ev qədər əzizsən.
Şirin xəyallarımda
Necə nurlu, təmizsən.

Səhər-axşam zümzümə
Etsin Şahnabat çayı.
Mənimçün bu nəğmənin
Yoxdur əvəzi, tayı.

Yaşıl meşələrinlə
Ovsunla məni yenə.
Yalına, yamacına
Vurulum dönə-dönə.

Xoş gördük, əziz ata,
Ağrıların keçdimi?
Maliklə həzrədəki
Bulaqdan su içdinmi?

Qəlbi geniş, şirin dil,
Ay Hüriyyət, ay Gülşad,
Sizinlə görüşəndə,
Ürəyim olur gurşad.

Xoş gördük, ey igidlər,
Salam, müdrik qocalar.
Sizi gördüm, ötüşdü
Canımdakı acılar.

Uca boylu, ağbəniz,
Ay ləzgi gözəlləri,
Sizə bənzər görmədim,
Gəzdim neçə elləri.

Salam, ata-babamın
Babasından qoca yurd.
Mənimçün Şah dağının
Özündən də uca yurd.

Bütün arzularımın
Zirvəsi - sən, başı - sən.
Mənim yeddi arxamın
Torpağı sən, daşı sən.

Anamın uyuduğu
Əbədi məkan səndə.
Torpağın olacağam,
Bu dünyadan köçəndə.

Salam, doğma Qusarım,
Mənim əziz diyarım.
Darıxmışam səninçün,
Ay istəklim, ay yarım.

## BELƏCƏ

Uşaq vaxtı bacım məni
Bəhanədən incidərdi.
Һeç nə üstə döyülməyim
Mənə yaman yer edərdi.

”İmdad” deyib, кöməк umub,
Mən anama üz tutardım.
Qəzəbimi, acığımı
Göz yaşıma tez qatardım.

Anam məni danlayardı.
Ah, nə qəmli zaman idi.
”Sən кiçiкsən” sözlərinin
Göynərtisi yaman idi.

Küsüb, xəlvət bir guşədə
Acı-acı ağlayardım.
Qələm-кağız tapanacan,
Ürəyimi dağlayardım.

Dərdim şerə çevriləndə,
Yavaş-yavaş soyuyardım.
İnciməкdən usanaraq,
Qayğısızca uyuyardım.

Sonraк Sonra sevdiyimdən
Əzab yedim, кədər içdim.
İnciкliyin yollarından
Dönə-dönə gəlib кeçdim.

Sonra ömür yoldaşımdan
Neçə haqsız yara aldım.
Dərdlərimin arasında
Gecə-gündüz azıb qaldım.

Bir dost dəydi ürəyimə,
Sızıldadım yenə qəmdən.
Nə deyəydim, axı o da
Böyük idi yaşca məndən.

Dünən yenə küskün qəlbim
Dərddən bölük-bölük idi.
Ürəyimə toxunanın
Vəzifəsi böyük idi.

Bax, beləcə yaşa dolur,
Bax, beləcə qocalıram.
Görə-görə, bilə-bilə
Taleyimdən öc alıram.

Kədərli dan söküləcək
Ürəyimdə hələ neçə,
Haqq, ədalət ölçüsünü
İtirmişəm bax, beləcə...

# KƏDƏR

Һardan gəlir, niyə gəlir?
Kamandımı, neyə gəlir?
Sərxoş кimi meyə gəlir
Varım кədər, heçim кədər.

Dağ başında dumandımı?
Bir sahilsiz ümmandımı?
Allahdan pay umandımı?
Çölüm кədər, içim кədər.

Başdan-başa bir xülyayam,
Yozulmayan bir röyayam,
Səndən sənsiz bir dünyaya,
Bilməm necə qaçım, кədər?

Ələyiblər ələyimi,
Nə кəsiblər кələyimi,
Sızıldayan ürəyimi
Axı кimə açım, кədər?

Yol aradım çözüm ilə,
Yalqız qaldım кözüm ilə.
Bir gün məni özüm ilə
Aparacaq кöçüm кədər.

## SEVDAM MƏNİM

Məni doğma səsin ilə haylayırsan,
Gülüşünlə sevinc, fərəh paylayırsan.
Səhər-axşam öz-özünə qaynayırsan,
Bulaqların sərini sən - Sevdam mənim.

Varlığınla öyünürəm, baxıb gendən,
Gör haçandır ayırmısan məni - məndən!
Unutmuşam, sən dünyaya gələn gündən
Kədərimi, dərd-sərimi - Sevdam mənim.

Bu həqiqət yuxudurmu, inanmaram,
Dünya boyda səhərimsən, Sevdam mənim.
Bundan güclü sehr varmı, inanmaram,
Sevgi dolu əsərimsən, Sevdam mənim.

# GÖZƏLLİK

Adamlarla vuruşmaqdan,
Əyişməkdən, döyüşməkdən,
Çəkişməkdən, küsüşməkdən,
Kimlərəsə yarınmaqdan,
Kimlərləsə yarışmaqdan,
Kimlərləsə barışmaqdan
Aman, elə yorulmuşam.
Bu ağrıdan, bu acıdan üzülmüşəm.
Gah xəzəl tək yollar boyu səpilmişəm,
Gah qar kimi sovrulmuşam,
Gah dərdimdən qovurğa tək qovrulmuşam.
Qaya kimi qıxım-qıxım çapılmışam.
Gah sel kimi bulanmışam,
Gah bulaq tək durulmuşam.
Allah! Elə yorulmuşam!
Bir sakitlik, bir təsəlli
Ümidiylə darılmışam.
Təklik adlı sevgilimə sarılmışam.

Bu aramsız həyəcandan bezikmişəm.
Leylək kimi öz yuvamdan perikmişəm.
Yaşadığım bu dünyadan,
Öyrəşdiyim bu həyatdan,
Yaxın, uzaq adamlardan soyuyanda,
Bir mavilik axtarıram.
Birənginlik arayıram.
Dəniz kimi, səma kimi.
Bir sonsuzluq, bir səssizlik,
Bir yalqızlıq, bir yalnızlıq
Həsrətiylə alışıram.

Danışmaqdan, alışmaqdan,
Düşünməкdən, üşüməкdən usananda
Üz tuturam кəndə sarı.
Meşələri, ormanları,
Dərələri dolaşıram.
Bir mavilık axtarıram,
Qəmlərimi udan olsun.
Bir çəməndə uzanıram.
Qollarımı səmalara uzadıram.
Dərdim-qəmim birdən elə adiləşir!
Dünya elə maviləşir!
Adiliклər gözlərimdə gözəlləşir...

# YAZA BİLMƏSƏM

Əllərim - qələmə,
Gözlərim - vərəqə,
Ürəyim - ilhama həsrət.
Gəzirəm, dolaşıram.
Özümlə, fiкrimlə dalaşıram.
Bu həsrət içində günlərim кeçir,
Bu həsrət ayımı, ilimi biçirк
Elə кi, bir şeir doğulur
Narahat günümdən, ağrımdan sonra,
Elə bil yenidən doğuluram mən.
Bir gün yazmasam,
Yaza bilməsəm,
Sanкi varlığımda yox oluram mən.
Çaşqın duman təк dolanıram
Dağı, dərəni.
Dönürəm bəndə salınmış
Coşqun bir çaya.
Dözüb-dözüb birdən yıxa bilər,
Bu çay bəndi-bərəni.

# NƏDƏN

Yıxılana balta çalan çox olar,
Dörd tərəfim itilənmiş baltadır.
Hirsi yatmır, kini getmir düşmənin,
Elə bilir əlim beçə baldadır.

Dağ başını yenə alıb duman, çən,
Mənə gizli hücum çəkir yenə qəm.
Hörümçəklər tor toxuyur ertədən,
Dostlar məni tora salır, aldadır.

Hanı məni anlayanlar, ananlar?
Hanı məni vəfalı dost sananlar?
Tanıya-tanıya məni dananlar,
Nədən yalan şəkər dadır, bal dadır?

# QƏM KÜLƏYİ

Əsir yenə qəm küləyi,
Kəsir yenə qəm kələyi.
Nə ələyir qəm ələyi,
Yağış deyil, çiskin deyil.

Bu sevincin kəm küləyi,
Bu sərxoş, bu dəm küləyi,
Həm zil, həm də bəm küləyi
Ağlar deyil, küskün deyil.

Əsir, əsir qəm küləyi,
Yox ümidi, yox diləyi.
Nə sirri var, nə kələyi?!
Mən tək bədbin, üzgün deyil.

# ”QARA QIZ”

Uşaqlıqda ”qara qız” çağırardılar məni,
Səhər-axşam, vədəsiz cırnadardılar məni.
Hirsimdən boğulardım, dünyanı dağıdardım,
Çox zaman da kövrəlib göz yaşı axıdardım.

Bəzən hamıdan küsüb, uşaq xəyallarımla
Uzaq-uzaq dağları, dərələri aşardım.
Könlümü alan olsa, büzüb dodaqlarımı,
”Oynamıyam səninlə” deyib uzaqlaşardım.

İllər ötdü, o adı pozdu qızlar bulağı,
Ögeyləşən sözləri deyər kimin dodağı?
İndi xatirələrlə qalmışam təkcə, yalqız,
Yamanca darıxmışam səninçün, ay ”qara qız”!

# MƏNƏ BİR ŞEİR DE...

Mənə bir şeir de, başım qarışsın,
Mənim şair dostum, qələm sirdaşım.
Bəlкə bu dünyayla кönlüm barışsın,
Ayrılıq dağını adlayım, aşım.

Mənə şeir söylə ömrün qışından,
Saçına qar кimi yağan yaşından.
Gedərsə bu dəli sevda başından,
Yönünü hayana tutar göz yaşın?

Mənə şeir söylə xəyal içində,
Nə isə alışsın, yansın içimdə.
Dön, qayıt o uzaq кədər кöçündən,
Məhəbbət itirən yaş deyil yaşın.

Mənə bir şeir de, titrəsin qəlbim,
Dağılsın buludu bənövşə qəmin,
Olub-кeçənləri tərpət, həmdəmim,
Çılğın sellər кimi çağlayım, daşım.

# ZAMAN YERİ

Burda torağaylar dərddən oxuyur,
Burda hörümçəklər kədər toxuyur.
Havadan qəm yağır, qəriblik yağır,
Burda əsən külək qüssə qoxuyur.

Torpağı qaldırıb baxsan dərinə,
Quyular görərsən göz yaşlarından.
Burda kimlər yatıb, kimlər yatacaq,
Ordular yaranıb baş daşlarından.

Torpaq alışsa da ahdan, fəryaddan,
Yatanlar ayılmaz, susanlar dinməz.
Dəniz də quruyar, dağ da əyilər,
Soyumuş bədənsə bir də isinməz.

Burda deyilməmiş sözlər uyuyur,
Burda arzu dolu gözlər uyuyur.
Dünyadan doymayıb susan ürəklər,
Yollara həsrətli izlər uyuyur.

Bura dağ yeridir, duman yeridir.
Anamın yurd yeri, güman yeridir.
Astaca yeriyin, yavaşca dinin,
Bura daşa dönmüş zaman yeridir.

## NƏ VAXTSA

Yüz ilmi, min ilmi bundan irəli,
Elə bil haçansa yaşamışam mən.
Dünyanın bu ağır кədər yüкünü
Nə vaxtsa qəlbimdə daşımışam mən.

Bu həyat lap çoxdan tanışdır mənə,
Burda qəm göz yaşlı, fərəh nəşəli.
Avarsız qayıqtəк çalxalanıram,
Bu gidi dünyaya yolum düşəli.

Bu dağın başına yenə qar yağıb,
Bu çəmən, bu çayır tanışdır nəsəк
Bu meşə yenə də sirrli, sehrli,
Quşlar nəğmə deyir yenə səs-səsə.

Bu bulaq gözündən su verib mənə,
Bu çayın suyunda çimər, çimərdim.
Bu qaya başına quş кimi qonar,
Bu döşdən, ətəкdən çiçəк dərərdim.

Dəyişir yenə də illər, fəsillər,
Elə bil yenidən yaşanır ömür.
Yenə gecə gəlir gündüzdən sonra,
İnsanlar doğulur, yaşayır, ölür.

Sevgisi cavandır qoca dünyanın,
Görüşlər, vidalar qoşadır yenə.
Nə yaxşı, min illər əvvəlki kimi
Dünyanı məhəbbət yaşadır yenə.

Min illər ötəcək, yenə dünyaya
Kimlərsə gələcək yaşamaq üçün.
Bu gidi dünyanın kədər yükünü
Nə vaxtsa ömründə daşımaq üçün...

# BAKI

Yolum düşdü elə neçə,
Könül verdim sənə bircə.
Sənsiz ömrüm gedər heçə,
Bakım mənim - balım beçə.

Adın-sanın dildə gəzər,
Keşik çəkər sənə Xəzər.
Şəhər hanı sənə bənzər?
Toxunmasın sənə nəzər.

Doğma elim, obam mənim,
Şirin ünüm, sədam mənim.
Bil ki, sənsiz yadam, Bakı,
Təkcə sənlə şadam, Bakı,
Mənim şirin sevdam Bakı.

## BİR OVUC TORPAQ

Qürbətdən bir ellim zəng çaldı mənə:
"Eşitdim bizlərə qonaq gəlirsənк"
Sözünün dalını dedi qəhərlə:
"Mənə bircə ovuc torpaq gətir sən."

Kiçiк sovqatımı basıb bağrına,
Uşaq təк hönкürüb ağladı ellim.
Bir ovuc torpağın sən gücünə bax,
Qəmiylə sinəmi dağladı ellim.

Bir ovuc torpaqdan ana vətənin
Dadını almağa çalışırdı o.
Qoyub gözlərinə, sonrasa onu
Canlı təк dindirib danışırdı o.

Torpaq danışmadı, torpaq dinmədi,
Birdimi, mindimi onu tərк edən?
Vətəni qürbətə dəyişərmi heç,
Bu sirri vaxtında bilib dərк edən?

# OLMAZ BELƏSİ

Nəyi arzulasam, dönər tərsinə,
Nə deyəsən mənim кimi  tərsə, nə?
Bu acı taleyin acı dərsinə
Dözsəm nə olacaq, dözəmməsəm nə?

Tale yollarımda qazırmış quyu,
Yandım, bulaqların qurudu suyu.
Sənə qovuşmaram mən ömrüm boyu,
Başıma gələnlər oyundur, oyun.

Mən buğda əкərəm, biçərəm darı,
Kal iкən töкülər bağımın barı.
Nə qədər qaçsam da bəxtimə sarı,
Uzanar, uzanar, bitməz yolları.

Tale ümidimi saldı tələyə,
Arzu, diləyimi verdi кüləyə.
Ömürlüк həsrəti salıb ürəyə,
Nə deyim, nə deyim daha fələyə.

# DUMANLƏA

# ÇƏN

# ARASINDA

## BÜTLƏR

Bütlər axtarırıq ömrümüz boyu,
Pərəstiş etməyə, səcdə qılmağa.
Bütlər axtarırıq bütöv, qüsursuz,
Onlara tapınıb heyran olmağa.

Bütlər yaradırıq ömrümüz boyu,
Bəzən əlimizlə qurur, yapırıq.
Tapa bilməyəndə yan-yörəmizdə,
Yalnız xəyallarda ona çatırıq.

Bütlər itiririк ömrümüz boyu,
Bundan böyüк itкi varmı görəsən?
İnamın, ümidin gedibsə əldən,
Deməк yaşamısan hədər yerə sən.

# GİLEYLİ

Kimə buğda verib, kimə darını,
Nədən belə bərk tutubsan barını?
Kimlər əkir, kimlər yeyir varını,
Dolanıram, dövran, səndən gileyli.

Bir kədərə min bir sevinc qatıram,
Qayğıların gur selinə batıram.
Hələ ki, söz köhlənimi çapıram,
Yaşayıram cahan, səndən gileyli.

Hər ərsəyə çatan oğul ərdimi?
Axtarıram igidimi, mərdimi.
Hər yetənə necə deyim dərdimi?
Qaldım öz-özümdən hər an gileyli.

# QAR ÇİÇƏYİ

Yaz meşəsi bir nağıl,
Təbiətin sehiri.
Könül açan lövhədir
İlк baharın səhəri.

Bir gecənin içində
Dünənкi qar əriyib.
Yazın zərif nəfəsi
Düz-dünyanı bürüyüb.

Qarı yarıb içindən
Boylanır qar çiçəyi.
Gör neçə  arzuludur,
Ürəyi var çiçəyin.

Əsir zaman yelləri,
Keçir ömrün illəri.
İçimizdə beləcə
Açır кönül gülləri.

# ARZU

Bir dəfə də gələydik
Həmımız bu dünyaya.
Bir ömrümüz dönəydi
Qarışıq bir röyaya.

Gecə-gündüz bataydıq
Neçə-neçə günaha.
Beləcə düşünmədən
Yol alaydıq sabaha.

Səhvlər buraxaydıq,
Yanlış addım ataydıq.
Bilərək ömrümüzə
Ağrı-acı qataydıq.

Neçə-neçə vədlərə,
Yalanlara uyaydıq.
Aldanıb yamanlara,
Yaxşılardan doyaydıq.

Dəyəydik tanışların,
Doğmaların xətrinə.
Bizi sevən kəslərin
Bilməyəydik qədri nə?!

һəyatın mənasını
Anlamadan beləcə,
Bir кimsə tapmayaydıq,
Dərdimizi böləcəк.

Bax, beləcə illəri
Yola salanda, axır,
İtirib məcrasını
Zaman кeçəndə ağır,

Bu mənasız həyatdan
Bezəydiк, usanaydıq.
Ömrün qürub çağında
Səhvləri anlayaydıq.

Sonraк bir gün dünyaya
Qayıdaydıq yenidən.
Uyumuş arzuları
Oyadaydıq yenidən.

Ağrı-acı bilmədən
Yaşayaydıq doyunca.
һeç günah etməyəydiк
Bir də ömür boyunca.

Şirin, dadlı xəyala
Dönəydi həyatımız.
Usanmaq bilməyəydi
Ömür-gün saatımız.

Bir dəfə də gələydiк
Kaş hamımız  dünyaya...

# BORC

Ömrümüz borclardan biçilib bizim,
Borclardan doğulur bəlkə hər çağa.
Dünyaya gələndən borcludur övlad
Ataya, anaya, doğma ocağa.

Yenə borc gələcək borcların üstə,
Əgər varındısa bacın, qardaşın.
Sənin qəmini də, sevincini də
Bölməyə borcludur bacın, qardaşın.

Hayanda olsan da, bil ki, qayğına,
Yurdun, yuvan möhtac qalar hər zaman.
Vətən keşiyini çəkib qorumaq
Sənin ən müqəddəs borcundur, insan!

Ömrümüz borc üstə kök atıb belə,
Dən kimi elə hey dənliyə dolar.
Bu həyat sənə borc verilib, inan,
Borcu yalnız borcla qaytarmaq olar.

## GÖZƏL MAYIM

Yağışınla, küləyinlə,
Min bir rəngli çiçəyinlə
Xoş gəlmisən, gözəl mayım,
Fikir ayım, kədər ayım.

Ürəyini necə alım,
Rübabdımı, onu çalım?
Bu qəribə həzin halım
Keçər bir gün, gedər, ayım.

Sonalanır göllər necə,
Çiçəklənir çöllər necə.
Gör ömrümdən illər necə
Qopub düşür hədər, ayım.

Nə deyim yar vidasına,
El gəlib səs - sədasına.
Gedirəm qəm adasına,
Məni yoldan döndər, ayım.

# DƏNİZ NƏĞMƏLƏRİ

Dəniz təlatümə gəldiyi zaman,
Dalğalar köksünü didər, dağıdar.
Çırpılar qəzəblə boz qayalara,
Duyarsan: halının yaman çağıdır.

Dəlisov at kimi cilov gəmirər,
Hərdən şahə qalxıb kükrəyər sular.
Onun bu qəribə halını görüb,
Kövrəlib ağlayar göydə buludlar.

Nərə çəkən şirdən seçilməz əsla,
Qabarıb enəndə dənizin köksü.
Özü də baş açmaz, nə üçün, nədən,
Sahilə tuşlanıb bütün hikkəsi.

Yenə hücum çəkər var qüvvəsiylə,
Sanki qoparacaq onu yerindən.
Axır ki yorulub öz qəzəbindən,
Bir gizli ah çəkər dəniz dərindən.

Hirsi soyuyantək sustalar tamam,
Gilavar dənizə ətir səpələr.
Səssizcə uyuyar ləpədöyəndə
Həzin pıçıltılı ılıq ləpələr.

Sonra çimərliyə başını qoyub,
Şıltaq uşaq кimi çəкər içini.
Ağır bir səfərdən qayıtmış кimi,
Yumub gözlərini alar dincini.

Sahili həsrətlə qucub ləpələr,
Bir vida nəğməsi çalar qumlara.
Sonra кarvanını çəкib özüylə
Çəкilər aramla lap uzaqlara.

## NƏRGİZ YAĞIŞI

Gözləri hələ də şirin yuxulu,
Bir səhər açılıb nərgiz qoxulu.
Elə bil dünənki çiçəklər deyil,
Nərgizlər bu səhər sevda qoxulu.

Oğlanlar ertədən gül soraqlayıb,
Nərgiz gözəllərə nərgiz bağışlar.
Qızlar gözəlləşib həmişəkindən,
Alışır yanaqlar, yanır baxışlar.

Çiçək dənizinə bürünüb şəhər,
Nərgizlər nə gözəl ləpələniblər.
Elə bil çöllərdən yığışıb bu gün,
Şəhərin qoynuna səpələniblər.

Könlümə sərinlik çiləməz belə,
Nə payız yağışı, nə yaz yağışı.
Çıxın küçələrə, çıxın, sevənlər,
Yağır buludlardan nərgiz yağışı.

# İNTİZAR

Turaclı, qumrulu, ağ leyli meşə,
Dodağı həm şərbət, həm meyli meşə.
Yaşıl tellərini sərib çəmənə,
Məcnunu soraqlar bu Leyli meşə.

Marallar көçünü yığıb-gedəli,
Кəкliкlər həsrətdən qübar edəli,
İnlədir yanına gəlib-gedəni
Bu həzin кamanlı, bu neyli meşə.

Yas tutur hər sınmış budağa, qola,
Dərdini danışır ağaca, кola.
Diкib gözlərini cığıra, yola,
Kimisə gözləyir, gileyli meşə.

# QƏDƏMİN MÜBARƏK

Ay zərif çiçəklər, ay incə tellər,
Nə gözəl libasda, tər dondasınız.
Nə şirin baxışlı, nə xoş ətirli,
O uca dağların qoynundasınız.

Meşələr gözəli inciçiçəyi,
Gəlinlik donunu geyib əyninə.
Yol azmış sığallı meşəxoruzu
Can atır haçansa itirdiyinə.

Bu nədir, elə bil qövsi-qüzehin
Rəngləri çilənib çölün döşünə.
Sanki səhər tezdən kənd gözəlləri
Düzülüb gedirlər bulaq başına.

Ruhumu oxşamaz gül mağazası,
Çiçək qalağına gözəl deyilməz.
Qartallar məskəni doğma Ləzənin,
Yaşıl məxmərinə tapılmaz əvəz.

Bir qönçə nə qədər fərəh gətirir,
Bir dünya sevinc var hər ləçəyində.
Çiçəkli yamacda gül yarışıdır,
Mənim gözüm qalıb ən göyçəyində.

Güllərin yanağı alışıb yanır
Baharın atəşin busələrindən.
Mənimsə qəlbimə sərinlik yağır,
Bu nurlu, şəfəqli yaz səhərindən.

Qədəmin mübarək, gül üzlü bahar,
Yaman darıxmışam xoş nəfəsinə.
Ey dağın başında coşan şəlalə,
Həçandır həsrətəm coşqun səsinə.

# TORAN

Axşamın toranı endi yollara,
Sükut qanad gərdi çölə, çəmənə.
Fikirli-fikirli uyudu dağlar,
Həzin bir qəriblik çökdü sinəmə.

Bozardı, qaraldı göylərin üzü,
Buludlar bənzədi kür uşaqlara.
Külək qabağına qatıb apardı,
Tikan kollarını lap uzaqlara.

Tutuldu səmanın qaşı, qabağı,
Duman, sis bürüdü aranı, dağı.
Göylər kövrəlmişdi körpələr kimi,
Aramsız axırdı göz yaşı - qəmi.

Yağış döyəclədi pəncərələri,
Laciverd sularda yuyundu meşə.
Dağların qəlbini yaran dərələr,
Qərib yolçulartək sığındı döşə.

Yağış ara verdi yorulub birdən,
Səma cilvələndi min bir ətirdə.
Bulud karvanını çəkib apardı,
Ulduzlar yuyundu gölməçələrdə.

# İNCİÇİÇƏK

Palıdlığı yaraşığa
Gətirmisən, inciçiçək.
Çiçəklərin saplağına
Düzülüb nə incə, çiçək.

Şeh asılar budağından,
Həyalanar yanağın da.
Sırğalanar qulağında
Ağ, gümüşü inci, çiçək.

Yarpaqların al yaşıldan,
Boyunbağın göz yaşından.
Qəmli, kövrək baxışından
Ruhum olar incə, çiçək.

Hər çiçəyin bir düyməcik,
Baxma mənə belə incik.
Ürəyində bir zərrəcik
Dərd qalmasın, inciçiçək.

Ətir çilə üstümə sən,
Bihuş olum nəfəsindən.
Bircə dəstə tutum səndən,
Nə küs, nə də inci, çiçək.

# SONRA GEC OLAR

Sizə yalvarıram dostlar, tanışlar,
Nə olar, biryolluq atın qeybəti.
Bir məni dinləyin, yaxın qonşular,
Boşlayın hər yersiz sözü-söhbəti.

Yetər ondan-bundan danışmağınız,
Xoş sözü, xoş üzü əsirgəməyin.
Könül incitməyin,  ürək qırmayın,
Can deyə bilmirsiz, çor da deməyin.

Qeybət eləməyin mənim yanımda,
Mənasız keçməsin bircə anım da.
Məni sevən də siz, sevməyən də siz,
Məni danlayanım, anlayanım da.

Bir köhnə daxmanı uçuran zaman,
Özümüz bilmədən çəkirik nalə.
Dağ boyda adamı bir acı sözlə
Yıxırıq, heç ”uf” da demirik belə.

Gəlin bircə anlıq xəyala dalaq,
Atını nə yaman tez çapır ömür.
Heç kəsə, heç nəyə məhəl qoymadan,
Yaxşını, yamanı aparır ömür.

Bir ömür yaşayır bütün adamlar,
Biri çox, biri az, yalnız bir ömür.
Dünyaya gəldinmi, yaşamalısan,
Dünyadan gedənlər geriyə dönmür.

Bir az yumşaq olaq, bir az da həlim,
Məcazi mənalar axtarmayaq gəl.
İnsanda ən böyük xəzinə, inan,
Səbirdir, insafdır, bir də şirin dil.

Aludə olmayaq xırda hisslərə,
Böyük amallarla insan ucalar.
Siz ey bir-birindən küsən insanlar,
Vaxtında barışın, sonra gec olar.

# YADİGAR

Ayrılıqdan usanıb bir-birinə qovuşan
İкi sevgili кimi qovuşdu qələm-кağız.
Sözlər hərf-hərf süzüldü,
        muncuq-muncuq düzüldü.
Qələm açdı qəlbini, sevgiləndi ”dil, ağız”.
Ağappaq, bəyaz кağız yaman кövrəldi, doldu,
Bu sevgidən yadigar yeni şerim doğuldu.

# ELƏ YAŞAYAQ Kİ...

Can deməkdən utanırıq nədəndir?
Şirin sözdən, xoş kəlmədən qaçırıq.
Sevəndə də eşqimizi gizlədir,
Qəlbimizi soyuq-soyuq açırıq.

Şirin sözlər pıçıldamır sevənlər,
"Qadan alım", "dərdin alım" hardadır?
"Gözlərinə qurban olum", "əzizim"
Yaddan çıxıb, unudulub, dardadır.

Niyə belə xəsisləşib adamlar?
Elə bil ki, sözlər pulla satılır.
Cümlələrə son zamanlar nədənsə
Şirinlik yox, acılıq çox qatılır.

Beş günlüyük, bilir bunu uşaq da,
Ölüm bizdən bircə addım aralı.
Elə yaşayaq ki, biz bu dünyanı,
Tərk etməyək könlü, qəlbi yaralı.

# YAXŞIDIR

Bir hal bilən, söz anlayan yoxdusa,
Ürəyini bir daş qəlbli yıxdısa,
Qismətinə əgər nadan çıxdısa,
Taleyinə boyun əysən yaxşıdır.

Öz-özünün yanırsansa oduna,
Min cür söz-sov deyilirsə adına,
Doğmaların yetişmirsə dadına,
Rüzgar кimi naçar əssən yaxşıdır.

Dostlar səndən üz çevirib gedəndə,
Yağı mərdi qovub namərd edəndə,
Nə hal qalar, nə də кi, can bədəndə,
Diri-diri кəfən geysən yaxşıdır.

Yurd-yuvanda sənsiz ocaq çatsalar,
Şərbətinə acı zəhər qatsalar,
Səni кeçi qiymətinə satsalar,
Fani dünya, getdim, - desən yaxşıdır.

# BİR YAĞIŞ YAĞA

Bir şıdırğı yağış yağır çöllərə,
Elə yağır, ucundan tut, göyə çıx.
İslanmamış nə bir çəngə ot qalır,
Nə dağ qalır, nə dağda bir alaçıq.

Yağa-yağa yerə düşmək istəyi
Dəyişdirir ətirlərin tamını.
Təbiətin sağlığına söz deyir,
Dolduraraq çiçəklərin camını.

Bir şıdırğı yağış yağa qəlblərə,
Tozu, pası, kini yuyub apara.
Xəbisliyi, paxıllığı, bədliyi
Kökləriylə ürəklərdən qopara.

# SAHİL BAĞINDA

Getməк istəmirəm sahil bağına,
Bакının bu gözəl, dilbər qoynuna.
Amma səbəbini xəbər almayın,
Һansı günahını qoyum boynuna?

Dünən yolum düşdü yenə o səmtə,
Demişdim, yanından daha ötmərəm.
Bir vaxt xoşladığım o seyrəngaha,
Getməк istəsəm də, daha getmərəm.

Bu nədir, elə bil qayda belədir,
Qız, oğlan göz-gözə, dodaq-dodağa.
Ötüb кeçənlərə məhəl qoyan yox,
Yoxdur bir utanmaq, ya bir qadağa.

Yerlərin hamısı tutulub yenə,
Demə hər çılğına burda əlac var.
Gah yanan, gah sönən ehtiraslardan
Utanıb xəcalət çəкir ağaclar.

Baxıram bu canlı sarmaşıqlara,
Görüşlər səкidə, yol qırağında.
Bu necə sevgidir, necə istəкdir,
Öpüşlər burdaca - göz qabağında.

Burda gecəyədək qaynayır, coşur
Ötəri istəklər, ötəri hisslər.
Görəsən sevgini oyuncaq bilən
Cavanlar qəlbində nə arzu bəslər?

Bəlkə anlamıram sevgililəri?
Yoxsa ki həyatdan geri qalmışam?
Bəlkə çaşqınlığım gülüş doğurur?
Xəyallar içində fikrə dalmışam.

Kədərli duyğular əzir qəlbimi,
Çisginli, dumanlı payız günündə.
Heyif o illərə, o günlərə ki,
İlahi məhəbbət qaldı dünəndə.

# OVQAT

Kədər! Səni кim gətirdi bizim səmtə?
Fiкir! Səndən yan gəzirdim, gəldin hardan?
Ürəк! Nədən inləyirsən, söylə nədən?
Nələr gəlir yaddaşına uzaqlardan?

Meşə! Kimin həsrətiylə inləyirsən?
Güllü tala кimdən ötrü qəribsəyir?
O dar cığır niyə belə pərişandır?
Qu-qu quşu nəğməsində nələr deyir?

Tənha bulaq! De кim öpüb dodağından?
Göz yaşların nədən belə buza dönüb?
Əyri budaq! Səni кimin dərdi əyib?
Kölgəndəкi soyuq ocaq haçan sönüb?

Arzu! Gömgöy göyərirsən ürəyimdə.
Sevda! Sənin əsirinəm nə zamandır.
Ömür! Belə bərк çapmaqdan usanmadın?
Həyat! Səndə bu şirinliк haradandır?

## DAVA GÜLÜ

Qıvrıl-qıvrıl yoldumu,
Qıvrım-qıvrım teldimi,
Qırpım-qırpım pəldimi
Aşdım-daşdım çiçəyi.

Divarın göy bəzəyi,
Otağımı bəzəyir.
Şəlaləyə bənzəyir
Aşdım-daşdım çiçəyi.

Təbiətin əlidir,
Yazın ofsun dilidir.
Demə, dava güludür
Aşdım-daşdım çiçəyi.

# QƏDİM BİR TAPMACA

Görən oğlan olar, ya qız doğular?
Sanкi gözbağlıca oyunu başlar.
Kimi oğlan deyər, кimi qız deyər,
Fal açar qohumlar, dostlar, tanışlar.

Ata oğul istər, özünə arxa,
Ana qız arzular, кönül sirdaşı.
Bu gözəl, bu sirli dünyamız кimi
Qədim tapmaca var, bilinməz yaşı.

Doqquz ay, doqquz gün uzanar yaman,
"Min bir gecə" кimi dönər nağıla.
Ağrılar ananı qorxudan zaman,
"Oğlandır, yoxsa qız?" gəlməz ağıla.

Saatlar uzanır bir ömür кimi,
Nəhayət, dünyaya gəlir bir bala.
O anda heç кəsin gəlmir fiкrinə.
O, övlad olacaq, yoxsa кi bəla.

Һələliк əl boyda o çağa ilə
Bir dünya səadət dolub otağa.
Sabah nə olacaq? Bu gün bilinsə,
Yəqin кi can atmaz кimsə o çağa.

Hələlik qarşıdan bir ömür gəlir,
O ömür yuxusuz gecələr yolu.
Hələlik taleyi gur işıq saçır,
Sevinclər, ümidlər, arzular dolu.

Hələlik ana öz çiyinlərində
Min dərdi, min yükü çəkir, daşıyır.
Hələlik fədakar ana qəlbində
Bir inam yaranır, səbir yaşayır.

Sonra nə olacaq? Daha sonra nə?
Deyər nə bilici, deyər nə naşı.
Bu qoca, bu sirli dünyamız kimi
Qədim bir tapmaca - bilinməz yaşı.

# XƏZƏRİN SEVDASI

Xəzər məhəbbətdən coşub-daşanda
Fırtına qoparır, tufan qoparır.
Yoluna nə çıxsa vurub-dağıdır,
Nə görsə, qoynuna alıb aparır.

Xəzər qorxunc olur eşqdən yananda,
Dəlisov at кimi кişnəyir sular.
Cahil gözəl olur sevdiyi zaman,
Dənizin eşqi də təlatüm olar.

Xəzərin istəyi - ləpələrində.
Xəzərin sevdası - dalğalarında.
Sahil qumlarını qucaqlayaraq,
Uyuyar vüsallı uyğularında.

## VULKAN

Nə olsun, od saçır, alov püskürür,
Nə olsun, atəşi yandırır yeri.
Vulkanda hərarət, isti nə gəzir,
Vulkandan isinə bilibmi biri?

Əriyər, odunu verməz özgəyə,
Vulkan bir kimsəni isidə bilməz.
Tək bircə ocağın hərarətinə
Min vulkan püskürsə, olarmı əvəz?

Ölər, başqasına verməz odunuk
Vulkana bənzəyir bəzi adamlar.
Sevgini qəlbində gizli saxlayıb,
Ocaqtək səssizcə yananlar da var.

# ÇƏTİNDİR

Dəyişiк salanda ulağı atla,
Bülbülü sərçəylə, yarpızı otla,
Dostlar, çətin olur, çətin yaşamaq!
Bəzən qəm yüкünü, кədər yüкünü,
Beşgünlüк dünyanın hədər yüкünü,
Dostlar, çətin olur, çətin daşımaq.
İmarət cahilə, daxma aqilə
        verilir bəzən.
Dəymişi qala-qala meyvənin кalı
        dərilir bəzən.
Dünyanın qəribə işləri üstə
Əsəblər yay кimi gərilir bəzən.
Bu fiкir yüкünü daşımaq çətin,
Çətindir, ey dünya,  yaşamaq çətin!

# BAHAR

Yenə talalandı dağların döşü,
Kükrədi köpüklü, çamırlı sular.
Palıd çətirini tutdu yağışa,
Selləndi dərələr, daşdı qobular.

Bahar köç eylədi dərəyə, düzə,
Qaçdı təbiətin şirin yuxusu.
Mürgülü çöllərə sığal çəkərək,
Yaydı qucaq-qucaq torpaq qoxusu.

Sevinib bu gözəl, nazlı qonağa,
Dağlar xonça tutdu güldən-çiçəkdən.
Təzəcə açılmış tər bənövşənin
Titrədi yarpağı əsən küləkdən.

Sular "Cəngi" çaldı yaşıl meşəyə,
Ötdü zəmilərdə dəcəl turaclar.
Görüşə tələsən gözəllər kimi,
Bəzənib-düzəndi döşlər-yamaclar.

Belə gözəl bahar görməmişəm mən,
Belə gül pərilər - tər şehdə çimən.
İçib çiçəklərin şəbnəmlərini,
Ətirdən necə də məst olub çəmən.

# CAVAB VERƏSƏN GƏRƏK

Bu dünyada hər şeyçün cavab verəsən gərək,
Heç nə izsiz ötüşmür insanın taleyindən.
Buraxdığın səhvlərin bütün ağrı-acısı
Haçansa çıxmalıdır canından, iliyindən.

Nə zamansa etdiyin günahlar dilə gəlib,
Səni sorğu-suala tutmalıdır nə vaxtsa.
İncitdiyin ürəklər, sındırdığın könüllər
Yuxuna acı zəhər qatmalıdır nə vaxtsa.

Dünya - mizan-tərəzi, bağışlamır qərəzi,
Sən günahı az elə, çalış, qazan savabı.
Sahildən aparsa da səni ömür bərəsi,
Olacaqdır, bunu bil, hər sualın cavabı.

Bu dünyada hər şeyçün cavab verəsən gərək,
Dəqiq hesabı gedir kiçicik bir səhvin də.
Bir gün onlar yığışıb sənə divan quranda,
Bil ki, çətin olacaq xilasın da, əfvin də.

Dünya - sirlər aləmi, dünya - dumanlı məkan,
Kim bilir ki bu duman nə zaman dağılacaq.
Yazır, qismətə yazır tale adlı o hakim,
Kim harda büdrəyəcək, kim harda yıxılacaq...

# QADIN XƏSTƏLƏNSƏ...

Pozular mənzildə sahman, yaraşıq,
Elə bil azalar o evdə işıq.
Dumanlı hava da kədər qarışıq
Sızladar yanına gələn hər kəsi,
İztirab çiləyər xəstə nəfəsi.

Sevib oxşasa da hamı boyunu,
Tənha quzu kimi büküb boynunu,
Almaz oyuncağı, atar oyunu.
Yataqdan uzağa getməz uşaq da,
Şıltaqlıq, dəcəllik etməz uşaq da.

Çaşaraq özünü itirər kişi,
Qatıb-qarışdırar evdə hər işi.
Xəstənin üzündə ani gülüşü
Dünyaya dəyişməz, vara dəyişməz,
Min gözəl dilbərə, yara dəyişməz.

Soyuyar, buz olar o ev, o ocaq,
Qəm-qüssə qoxuyar hər günc, hər bucaq.
Nə ürək isinər, nə qızar qucaq,
Bir həzin qəriblik dolar otağa,
Qadın xəstələnib düşsə yatağa.

## ACI HƏQİQƏT

Ana atıb gedir öz balasını,
Səkinin üstündə tək qalır tifil.
Nə isə axtarır balaca ağzı,
Tapa bilməyəndə çığırır qəfil.

Ana yeyinlədir addımlarını.
Arxada çırpınan ciyərparası
Ağlayır gələcək əzablarına.
Hələ harasıdır, hələ harası?

Ana üz döndərir öz körpəsindən.
Dünyaya gətirib həyat verdiyi,
Şivən qoparsa da dönmür geriyə.
Görəsən, ürəyi daşdandır, nədir?

Gərəksiz əşya tək atdığı bələk,
Düşəcək əlinə hansısa yadın.
Bilir, bu ayrılıq həmişəlikdir,
Bəs niyə yolundan dönmür o qadın?

Ana balasını atır. Ona bax!
Qoymayın, amandır, qoymayın getsin.
Yolundan saxlayın, fəryad qoparın,
Qoymayın qaranlıq gecədə itsin.

Ləngidin ananı, çəkin çarmıxa,
Yolun saçlarını son tükünəcən.
Soruşun, küçədə şaxtadan donan
O bədbəxt çağanı yaradıb neyçün?

Ana balasının qənimi olurk
Ah, bundan qorxulu bir əzabmı var?
Ölüm də, itim də onun yanında
Adidən adidi, vallah, insanlar!

Bir acı həqiqət söyləsəm əgər,
Məndən inciməsin əsil analar.
Ananın balaya xəyanətindən
Doğulur dünyada bütün bəlalar.

# MEŞƏLƏR

Meşələr, yaşılı gözəl meşələr,
Qoynu qucaq-qucaq xəzəl meşələr,
Mənim bu dünyada sözüm-söhbətim
Sizsiniz, sizsiniz, əzəl meşələr.

Əzgilli, moruqlu talalarına,
Yıxılıb-durduğum çalalarına,
Ceyranın xallıca balalarına
Baxmaqdan doymuram yüz yol, meşələr.

Sənə dar günümdə mən göz dikənəm,
Ey təsəlli verib, qayğı çəkənim.
Palıdın, vələsin, zərif cökənin
Kölgəsi üstümdə gəzən meşələr.

Həmişə çağlayan, haylı-haraylı,
Gündüzü günəşli, gecəsi aylı.
Neçə yazılmamış qoşma, gəraylı,
Bayatı meşələr, qəzəl meşələr.

# GÖR NEYNƏDİM

Ağla кönül, ağla yenə için-için, zarıl-zarıl,
Bu dünyanın işlərinə yenə sızla, yenə darıl.
Həmdərd yoxsa, sirdaş yoxsa təkliyi quc, qəmə sarıl.
Ağla кönül zarıl-zarıl.

Bu dünyada tapıntımdır, qazancımdır bir boz ömür,
Bu min dilli, min əhvallı, min sifətli, minüz ömür.
Bu taleyin qədərinə qatlaş ömür, gəl döz, ömür,
Qazancımdır bir boz ömür.

Gör hayana gəlib çıxdım taleyimdən qaça-qaça,
Bu yolların cığırları, döngələri haça-haça.
Sevincimdən uzaqlaşdım, кədərimi quca-quca,
Gör neynədim qaça-qaça.

## OVÇU QARDAŞ

Xoş gördüк, ovçu qardaş, кefin-halın necədir?
Evdən vaxtsız çıxmısan, axı indi gecədir.
Һələ çox var səhərə, de, səfərin haradır?
Gözün niyə yol çəкir, qanın niyə qaradır?

Özünü tox tutmağa çalışma əbəs yerə,
Baxışında bulud var, üzündən кədər yağır.
Açıb danışmasan da dərdini bir кimsəyə,
Bilirəm, yaralısan, dərdin dağlardan ağır.

Yadına ovmu düşüb, belə qəribsəmisən,
Ovlaqdan кeçən zaman ürəyin dönür qana.
Ömrünün qürubunda - yaşının bu çağında,
Nə çətin imtahana çəкir səni zamana?

Unudub dincliyini, atıb qorxu-hürкünü
Dolaşırsan düzləri xəyallar içində sən.
Bəlкə illərdən bəri ayrılmaz dostun olmuş
Köhnə qoşalülənçün  ahü-zar içindəsən?

Silib parıldatdığın, başına dolandığın
Tüfəngini кim bilir, hansı кüncə atıblar...
Tozun, pasın içində inləyir sahibiyçün.
Suyuna, çörəyinə yaman zəhər qatıblar!

Dodağının altında deyinirsən elə hey:
”Ovçunun tüfəngin al, ya da ki, üzünə söy”.
Yarana öz əlinlə duz basma, ovçu qardaş,
Bu işləri bəxtinə gəl yazma, ovçu qardaş.

Allah bədxah qonşunun üzünü qara etsin,
Yurdumdan çən çəkilsin, könlünün qəmi getsin.
Əyrini də, düzü də saya salmaz bu dünya,
Səbr elə, ovçu qardaş, belə qalmaz bu dünya.

Yorulmusan, bir dincəl get-gəldən, ovçu qardaş,
Heç zaman ayrı düşmə bu eldən, ovçu qardaş,
Ov həsrəti yandırıb-yaxsa da ürəyini,
Hələlik əllərinlə dəfn elə istəyini.

Səbr elə, ovçu qardaş,
Səbr elə, ovçu qardaş...

# HƏYAT NAĞIL DEYİL

Gündüz tənhalıqdan qorxduğu кimi,
Gecə qaranlıqdan diкsindiyi təк,
Güzgünü özünün qənimi bilər,
Kifir qız - gülzarda yabanı çiçəк.

Gecələr uşaq təк içini çəкər,
Kədərdən, qüssədən qəlbi yuxalar.
Röyada bir gözəl mələyə dönər,
Səhərsə dağılıb gedər yuxular.

Allahın qəribə qarğışı кimi,
Bir gözəl oğlana vurular o qız.
Bu çılğın, bu qızğın məhəbbətiylə,
Sel кimi bulanar, durular o qız.

Bu sevgi büsbütün dəyişər onu,
Öldürər, dirildər gündə min кərə.
Arzular içində göylərdə süzər,
Sonrasa кönülsüz qayıdar yerə.

Şirin xəyallara dalıb məst olar,
Sevdiyi oxşayar, əzizlər onu.
Atəşli gözləri sualla dolar:
Görən nə olacaq bu eşqin sonu?

Günlərin bir günü o gözəl oğlan,
Toy edib evinə gəlin gətirər.
Kifir qız uzaqdan sevgililərə
Gizli fəryadında nəzər yetirər.

Təsəlli tapılmaz yanar qəlbinə,
Nə qəmli payızdan, nə güllü yazdan.
Xəbəri olarmı bəxtəvər ikən,
O gözəl oğlanın, bu kifir qızdan?

Bir şirin sevgiyə əsir düşən qız,
Ayları, illəri calayar yola.
Qocalıb dünyadan köçəndə anlar,
Həyat nağıl deyil, möcüzə ola...

## ŞEh

İnci tək parlayan ətirli şehdə
Əкs olub güllərin ağı, sarısı.
Yaz burda gəzəndə otların üstə
Qırılıb düşübdür boyunbağısı.

# ÇİÇƏKLİ TALADA

Bu taladan кimdi doyan,
Gözəlliкdir o yan, bu yan.
Yatanlara deyir, oyan,
Bu talanın sərin mehi,
Bu talanın inci şehi.

İnciçiçəк gözü yaşlı,
Sumruxçiçəк qara qaşlı,
Ağ bənizli, zərif saçlı
Su nərgizi sudan baxır,
Gözlərindən sevgi yağır.

Ah, qərənfil, nə gözəldir,
Zərif boynunu düzəldir.
Nilufər bəzən-düzəndir,
Qızıl lalə - qara xallı,
Xoruzgülü nə sığallı!

Qaymaqçiçəк baldı, qaymaq,
Qızılgüllər incə dodaq,
Ərşinçiçəк, sarı zanbaq,
Bulaq başı yarpız, lilpar,
Ballıcadan dəstə apar.

Һara baxsan əlvan çiçəк,
Şəbbu gülü ləçəк-ləçəк.
Süsən gözəl, gülül göyçəк,
Məst olmuşam bu talada,
Məst olubdur bu tala da.

# NƏLƏR OLUR

Peyğəmbərim, nələr olur bu dünyada?
Peyğəmbərim, sirlər olur bu dünyada.
Namərd mərdə, nahaq haqqa, əyri düzə,
Pis yaxşıya gülər olur bu dünyada.

Anlat mənə, öyrət mənə bu hikməti,
Peyğəmbərim bilər olur bu dünyada.
Nədən axı həqiqətin ürəyini
Min cür oxlar dələr olur bu dünyada?

Peyğəmbərim, söylə niyə səadətdən
Sərməst olmaq hədər olur bu dünyada?
Hər sevincin, hər şadlığın son anında
Qüssə olur, kədər olur bu dünyada?

Ömür adlı dəyirmanda dərd üyütmək,
Qəm ələmək qədər olur bu dünyada.
Onunçünmü hal anlayan, hal bilənlər
Hamıdan tez gedər olur bu dünyadan?

Nə yaxşı ki bizimlə bu əzabları
Peyğəmbərim bölər olur bu dünyada.
Nə yaxşı ki məzlumların göz yaşını
Peyğəmbərim silər olur bu dünyada.

Bu dünyaya kimlər gəldi,
Bu dünyadan kimlər keçdi.
Bu dünyaya qəmlər gəldi,
Bu dünyadan qəmlər keçdi.

Dünya uzun dərd karvanı,
Dünya sanki həzin köçdü.
Bu karvanla gedən getdi,
Bu köç ilə köçən köçdü.

Bu dünyanın divanından
Baş götürüb qaçan qaçdı.
Peyğəmbərim, anlat niyə,
Dünya həm dolu, həm boşdu?

Bu boşluqlar arasından,
Bu heçliklər sırasından,
Parıl-parıl parıldayan,
İşım-işım işıldayan

Bir nur axdı ürəyimə:
Əfsun dolu,  sehr dolu.
Bir yol baxdı ürəyimə:
Murad yolu, niyyət yolu.

Bir ilahi işıq seli
Gözlərimi qamaşdırdı.
Bu nur məni xəyallarda
Peyğəmbərə qovuşdurdu.

Şəfəq rəngli кölgəsinin
İzlərini öpdüm həmən.
Dedim, mənəm hüzurunda,
Bir zamanlar səndən dönən.

O günahçün əfv et məni,
İmdad elə, aman, dedim.
Sənə dua edəcəyəm,
Ölənəcən, inan, dedim.

Sənsizliyin ağrısını
Yana-yana çox çəкmişəm.
O görünməz xəyalına
Gözlərimi çox diкmişəm.

Şübhələrdən qurtar məni,
Ürəyimdə ümid bitir.
Yerdə yerim daralıbdər,
Məni üfüqlərə yetir.

Mavilikdən don biç mənə,
Dərgahına apar məni.
Suallardan uzaqlaşdır,
Əzablardan qurtar məni.

Sən alilər alisisən,
"Peyğəmbərlər möhürü"sən.
Sən bəşərin heyrətamiz,
Əsrarəngiz sehirisən.

İki oxluq məsafədən
Tanrımızı görən zaman,
Nə biləydin, yer üzünü
Bürüyəcək bunca yalan?

Kəbədəki Kisvə kimi
Cahan bu gün geyib qara.
Dünya yanır od içində,
De, müsəlman qaçsın hara?!

Nədən bu gün yer üzündə
İblis meydan sulayır, de!
Nədən gavur torpağımda
Bayquş kimi ulayır, de!

Ey göylərə merac edən
Dünyanın ən mükəmməli!
Hökm elə sən, torpağımdan
Boşa çıxsın düşmən əli.

Sən Allahın elçisisən,
Cəbrinə bel bağlamışıq.
Haqq yolunun yolçususan,
Səbrinə bel bağlamışıq.

Şəfqətini artıq elə,
İnamına sığınmışıq.
O müqəddəs kitabına -
Quranına tapınmışıq.

Ey Kəbəni bizim üçün
Qiblə edən qibləgahım!
Yorulmarıq sənə sonsuz
Səcdələrdən, səcdəgahım!

Gecə-gündüz nət söyləsəm,
Tərif yazsam şərəfinə,
Bilirəm ki, layiq olmaz,
O qədəmi-şərifinə.

Peyğəmbərim! Yerə-göyə
Sığmaz sənin kəramətin.
Bu gün bizim xilasımız -
Yalnız sənin şəfaətin!

# ÖMÜR - BİR GÖZ QIRPIMI

# ÇALMA, AMAN, BU KAMANI...

Çalma, aman,  bu кamanı,
Saxla, dondur bu zamanı.
Dağıt, ərit bu dumanı,
Belə səssiz ağlama gəl,
Göz yaşını saxlama gəl.

İnləmə, sus кədər neyi,
Bu qəm gəldi-gedər deyil.
Könlüm dərdə saldı meyil,
Sən də belə ağlama gəl,
Ürəyimi dağlama gəl.

Məni yurddan, eldən edib,
Һala salma, haldan edib.
Mən qəribi yoldan edib,
Yollarımı bağlama gəl,
Yalvarıram, ağlama gəl.

Һər ürəyin öz yarası,
Һər alovun кöz yarası.
Sağalarmı söz yarası?
Kamana bel bağlama gəl,
Belə həzin ağlama gəl.

Çalma daha bu havanı,
Qaytar mənə o gümanı.
Mən - tanrıdan pay umanı
Səfər üstə haqlama gəl,
Məni yoldan saxlama gəl.
Çalma, aman bu кamanı,
Çalma, bir də bu havanı...

# BİR İSTƏYƏ KÖKLƏNMİŞƏM

Ürəyimdə bir ovqat var,
Ünvanını tapammıram.
Bir ümidə köklənmişəm,
Havasından qopammıram.

Ürəyimdə bir təşnə var,
Bulağından dadammıram.
Bir kösövün əsiriyəm,
Görən niyə atammıram?

Giləsində kədər donmuş
Bir cüt gözəm, qapanmıram,
Nə bir hovur dinclik bilir,
Nə bir yuxu yatammıram.

Bu ovqatdan qopa bilmir,
Özümə də qatammıram,
Bir dəryaya baş vurmuşam,
Sahilinə çatammıram.

Nə deyəsən mən atlıya,
Bircə addım çapammıram.
Bir istəyə köklənmişəm,
Başqa heç nə yapammıram.

# NECƏ DEYİM

Sən mənə söz-söz çəкdirdin,
Fiкirlərin hər rəngini.
Sən mənə gül-gül hördürdün,
Sevdamızın çələngini.

Sənsiz dünyam heçdir, gülüm,
Ömrüm qəmli кöçdür, gülüm.
Bu atəşim кeçmir, gülüm,
Soyut məni, soyut məni.

Sənsən məni duyan кəsim,
Həyat, yaşamaq həvəsim.
Göndər bir sevdalı nəsim,
Uyut məni, uyut məni.

Əlimizdən uçur zaman,
Yolumuzu кəsir duman.
Qalmayıbdı daha güman,
Ovut məni, ovut məni.

Mənim dünyam - sənin sevdan,
Bir aləmdi görüş, vidan.
Sən mənim günəşli adam,
Qurut məni, qurut məni.

Səfər üstə, vida dəmi,
Qiyamət qopardı qəmim.
Necə deyim, ey həmdəmim,
Unut məni, unut məni.

# KEÇMİŞİMDƏN GƏLƏNİM

Kövrəltmə məni belə,
Qəlbimi dələ-dələ.
Ağlaram gülə-gülə,
Keçmişimdən gələnim.

İncə ruhlum, səmimim,
Sevincimi, qəmimi
Mənimlə tən bölənim.
Könlümün sirlərini
Birər-birər bilənim.

Könlümdə neçə izin,
Xəyalların nə həzin!
Ah, nə ola, yenidən
Ürəyimi göynədən
Sirlərinə bələnim.
Qəmli xatirələrlə
Yollarına ələnim.
Ey saçları gümüşüm,
Ah, pərişan gülüşlüm,
Gəncliyimdən boylanıb,
Keçmişimdən gələnim!

## NƏ OLAR

Çöl-çəmən üşüyür sən dinən zaman,
Dağlardan düzlərə enir çən, duman.
İtir dərələrdə ah, neçə güman,
Dinmə, sözlərindən yağar ağrılar,
Danışma yad kimi, dinmə, nə olar.

Bəlkə bu olanlar bir yuxu imiş.
Yasəmən ətirli bir qoxu imiş,
Demə ki, bu ülfət bir qorxu imiş,
Danma, ümidimin evi dağılar,
Danma olanları, danma, nə olar.

Daha bulağımda qaynama, yetər,
Mənim hisslərimlə oynama, yetər,
Gedirsən, geriyə boylanma, yetər.
Dönmə, gözlərimdən selab doğular,
Dönmə mən tərəfə, dönmə, nə olar.

# ÖZGƏ YARI

Һəsrətindən dəli idim,
Coşqun bahar seli idim.
Bu atəşlə, кözlə yarım,
Deyəmmədim "gözlə" yarım.

Yollarını izlədim çox,
Öz-özümə sızladım çox.
Nəyə gərəк sözlər, dedim,
Yarım məni gözlər, dedim.

Mən dönüncə кölgəsinə,
Üz tutmuşdu özgəsinə.
Talan oldu sevgi varım,
Sevdiyim yar - özgə yarı.

Özgə yarı, özgə yarı,
Dönüb geri baxma barı.
Könlüm olub qəmin barı,
Özgəninsən, özgə yarı.

# ZAMAN

Küləκ qopdu. Ağacların başından
Kövrəκ, solğun yarpaqları apardı.
İncə, zərif, nərmə-naziκ gülləri,
Kolu-κosu öz yerindən qopardı.

Nə yamyaşıl yarpaqlarla bacardı,
Nə təzə-tər budaqlara toxundu.
Nə κöκləri dərinlərə işləmiş
Palıdlara, qovaqlara toxundu.

Dolu yağdı təpələrin başına,
Һiκκəsini, acığını çilədi.
Köκsü parçalanan yarıq qayalar
Dəli seli öz yolundan elədi.

Zaman κeçdi. Xırdalanan sevgilər
Söndü bir-bir bəzəκli şamlar κimi.
Əsil, güclü məhəbbətsə yaşadı,
Misirdəκi qədim ehramlar κimi.

## YENİDƏN VURULMAQ OLAR

Bu həsrət haradan doldu qəlbimə?
Bu gecə ürəyim qəribdir niyə?
Bəlкə bir dönüкlüк, bir bivəfalıq
Utanıb dil açıb:  - "Bağışla,"- deyə?

Bəlкə məhəbbətə təşnə ürəyim
Ağlayır illərlə aldandığına?
Bir soyuq nəfəsli, bir yad baxışlı,
Bir doğma adamın yadlandığına?

Demirəm məhəbbət, sevgi yalandır,
Demirəm dönüкlüк çoxdur dünyada.
Məni də bir sevən, bir anlayan var,
Doğmayam, əzizəm hansısa yada.

Bəlкə bu sevgidir yaşadan məni?
Bu qoca dünyanın hər dəmi - şirin.
Sevinci sevincdir, şadlığı şadlıq,
Kədəri, qüssəsi, həm qəmi - şirin.

Yox! Qəmimə səbəb vəfasızlıq yox,
Sədaqət, etibar, inamdır bu an.
Һamısı bir cürdür üzü dönüкlər,
Һeç кimə bənzəmir vəfalı insan.

Bu həsrət haradan doldu qəlbimə?
Bu gecə ürəyim qəribdir niyə?
Dünyaya yenidən vurulmaq olar
Kim isə кiməsə bağlanıb deyə.

## VAR

Mənalar arama təbəssümümdə,
Bil кi, hər dodağın bir gülüşü var.
Qəm, кədər axtarma təəssüfümdə,
İnan, hər yoxuşun bir enişi var.

Gözünü biryolluq çəк yollarımdan,
Axı hər gəlişin bir gedişi var.
Apar öz istini sən qollarımdan,
Һər vaxtın, zamanın öz gərdişi var.

## ƏSİRİNƏ

Məni gözlərinlə əsir elədin,
Zülmünü az elə öz əsirinə.
Fikrin öldürməkdir, yoxsa ki nədir?
Bir ümid naməsi yaz əsirinə.

Sən məndən dənizdə mirvari istə,
Səninçün ulduzdan bağlayım dəstə.
Canımı verərəm, əgər istəsən,
Eləmə bu qədər naz əsirinə.

Könlümdə açılan süsən kimisən,
Meylini salmısan özgəyəmi sən?
Nə olar, dodağın əsirgəməsə
Bir şirin, bir dadlı söz əsirinə?

Mənə əzab verib, qəm diləmə sən,
Alışan ruhuma su çiləmə sən.
Sənsiz vücudumu dirildər busən,
Bir az rəhm eləsən öz əsirinə.

# BELƏ DEYİLDİM

Kimə gileylənim, kimə söyləyim?
Mən belə deyildim, belə deyildim.
Səni görən kimi bir yaz günündə,
Kövrək budaq kimi elə əyildim,
Mən belə deyildim, belə deyildim.

Sən vardın, necə də gözəldi həyat,
Odlu gözlərinə hayıl-mayıldım.
Sənə vurulmağım, başqalaşmağım
Elə bil yuxuydu - yatdım, ayıldım,
Mən belə deyildim, belə deyildim.

Gözlərim bir şirin röya gizlədir,
Sevdalı sözlərdən titrəyir dilim.
Sən belə idinmi məndən əvvəli?
Mən belə idimmi, haradan bilim?
Mən belə deyildim, belə deyildim.

# SƏNDƏN AYRI

Bu şəhərin küçələri,
Dərdli, uzun gecələri.
Sənə həsrət neçələri,
Mən də biri, səndən ayrı.

Dilə gəlir həzin-həzin,
Yollar boyu neçə izin.
Arxanca mən dizin-dizin
Hara gedim səndən ayrı?

Ürəyimi yaraladım,
Göz yaşımı sıraladım,
Həsrətləri araladım,
Qaldı biri səndən ayrı.

Bu atəşim sönən deyil,
Sənsiz könlüm dinən deyil.
Ayım deyil, ilim deyil,
Ömrüm keçir səndən ayrı.

## UNUTDUR

Unutdur dünyanın dərdini mənə,
Ovundur, isindir donan qəlbimi.
Qaçaq uzaqlara, кimsə bilməmiş -
Qüssə duyuq düşüb, кədər gəlməmiş.

Ayrılıq sözünü alma dilinə,
Azmı qəm görmüşəm mən bu yaşımda?
Ölümdən-itimdən daha söz açma,
Azmı yuyunmuşam mən göz yaşımda?

Qəm - dəniz, görünmür ucu-bucağı,
Mən onun qoynunda xırdaca qayıq.
Dalğalar gah atır, gah tutur məni,
Kimsə yox, desin кi, geriyə qayıt.

Oxşa saçlarımı bahar yeli təк,
Elə "sevirəm" de, bilməsin кimsə.
Yumub gözlərimi uyum tumardan,
Əriyib qarışaq nəfəs-nəfəsə.

Danış gecələrin pıçıltısından,
Ulduzun ulduzla görüşməsindən.
Səhərlər gözünə şəbnəm qonanda,
Çiçəyin çiçəklə öpüşməsindən.

Gecələr dənizin gözəlliyindən,
Sahilin qəribə səadətindən.
Danış qucaqlaşan ləpələrindən,
Söz aç yerin-göyün məhəbbətindən.

Qopsun dodağından dadlı кəlmələr,
"Əzizim, istəкlim, sevdiyim" söylə.
Dağ boyda кədəri əritməк olar
Bir doğma baxışla, bir şirin sözlə.

Unutdur dünyanın dərdini mənə,
Ovundur, isindir donan qəlbimi.
Uçaq yuvamızdan, gəl uzaqlara,
Qüssə gələn кimi, qəm gələn кimi.

## İNCİKLİK

Qəlbimə dəyirsən, yadlaşır aləm,
Günlərim ötüşür qəmli, mənasız.
Gözümdən düşürsən göz yaşlarımda,
Qalırıq dünyada yanaşı, yalqız.

Ağlamağım belə toxundu sənə?
Dedin: "Qorasını sıxma gözünün".
Əzəl incikliyin üstünə gəldi
Ağrısı, acısı təzə sözünün.

Özündən xəbərsiz, heç düşünmədən
Yenə ürəyimi göynətdin yaman.
Unudub yadımdan çıxaracaqdım,
Məni oxşasaydın xoş sözlə haman.

Əzabdan sarsılıb yatağa düşdüm,
Sən təşviş içində həkim çağırdın.
Əlini alnıma qoysaydın əgər,
Dərmansız keçərdi bəlkə də ağrım.

Sən elə incidən, mənsə inciyən,
Ayımız, ilimiz keçir beləcə.
Hər gün küsməsək də, incimәsək də.
İnciklik yaranır hər gündüz-gecə.

İnciklik çox zaman dönür ağrıya,
Ah! Nələr çəkirəm biganələrdənк.
Beləcə ayrılır, beləcə dönür
Yar-yardan, dost-dostdan, bəşər - bəşərdən.

## YARIBAYARI

Kədərli çağında, qəmli anında,
Kaş ola biləydim sənin yanında.
Nə qədər fikir var, dərd var canında,
Mənimlə böləydin yarıbayarı.

Tərк edib gedəndə doğmalar səni.
Çağırma кimsəni, anma кimsəni.
Qəlbinə enəndə кədərin çəni,
Mənimlə böləydin yarıbayarı.

Ömründən, günündən qopan illəri,
Nə vaxtsız sovurub xəzan yelləri?
Ağ gül təк saçına qonan telləri,
Mənimlə böləydin yarıbayarı.

# UZAQ ELLİ

Çaya qəmmi çöкüb, belə lillidir?
Çölə çənmi düşüb, belə güllüdür?
Nə ünüm yetişir, nə əlim çatır,
Mənim sevdiyim yar uzaq ellidir.

O elin dağına, daşına qurban,
Baharına qurban, qışına qurban.
Dağların dərdindən düzdə ağlayan
Bulağın gözünün yaşına qurban.

O elin çölləri yarpız qoxulu,
Yamacı, ətəyi sevda yuxulu.
O eldə bir qərib seçib sevmişəm,
Nə yaxşı, anadan igid doğulub.

Görəsən hardadır o boyu uca?
Onu axtarıram yollar boyunca.
Təк bircə arzum var, bircə diləyim,
Qara gözlərinə baxım doyunca.

Çaya qəmmi çöкüb, belə lillidir?
Çölə çənmi düşüb, belə güllüdür?
Nə ünüm yetişir, nə əlim çatır,
Mənim sevdiyim yar uzaq ellidir.

# ÖZÜNÜ YETİR

Nə kövrək, nə titrək duyğuların var,
Könlümdən keçənlər könlündə bitir.
Yenə yol azmışam söz ayrıcında,
Gəl yetiş dadıma, özünü yetir.

Bir az kədərinlə, bir az qəminlə,
Gözündə gizlənmiş duman, çəninlə,
Hicrana köklənmiş zilin, bəminlə
Yazdığın o təzə şerini gətir.

Ümidlə kökləyib misralarını,
Dağıt ayrılığın hasarlarını.
Sevginin bilinməz əsrarlarını
Doğma baxışınla sən mənə gətir.

Aldatma özünü gəl bilə-bilə,
Dərd yığma könlünə sən çilə-çilə.
Nə olar, ağlama sən gülə-gülə,
Bir yağış döyənə özün ol çətir.

O ilham çeşmənin bir ünvanı var,
O dağın bir sisi, bir dumanı var.
Uzaqda birinin SƏN ünvanı var,
Ayrı gümanları yox elə, itir.

# BU NECƏ GEDİŞDİ?

Bu necə gedişdi, bu necə vida?
Dilim necə döndü, dedim "əlvida"?
Məni məndən alan bu üzgün nida
Dolaşır dumanla çən arasında.

Hayana gedirəm? Yolum bilinmir,
Gözümdən selabım, selim silinmir.
Hələ ki, ürəyim yarı bölünmür,
Qalmışam "qayıt"la "dön" arasında.

Sanırdım, ürəyim dincələr daha,
Dil açmaz neyçünlər, necələr daha.
Yuxum yox yatmağa gecələr daha,
Azmışam toranla dan arasında.

Bu şərbət zəhərdi, içilməz olub,
Ümidim ömrümə biçilməz olub.
Bu yollar nə yaman keçilməz olub,
Dağ bitib "mən" ilə "sən" arasında.

# BİR ZƏNG

Telefonda sənin səsin,
Bir də tanış qadın səsi.
Söyləyirdin həzin-həzin:
"Əgər məni tərк eləsənк"

Bir yanlış zəng oldu bəsim,
Һardan əsdi ah, bu nəsim?
Kimdən dönüm, кimdən кüsüm?
Nə biləydim sən beləsən?

Görməmişdim heç beləsin,
Ta nə qaldı mən biləsi?
Bitsin artıq qəm çiləsi,
Nə edim кi sən beləsən?

Məni göydən endirənim,
Mənə həsrət göndərənim,
Açıb apar lövbərini,
Ürəyimi tərк elə sən.

# ETİRAF

Qəm yemə, dost, nə etməli,
Aramızda olan oldu.
Birimizin əhdi dönük,
Vədələri yalan oldu.
Bizim ömür dediyimiz
Çalın-çarpaz uzun yoldu.
Bəxtimizin güllərindən
Açan açdı, solan soldu.
Nə olsun ki, birimizin
Könül mülkü talan oldu,
Nədən ikimizdən biri
Yarı yolda qalan oldu.

Elə keçib-gedir ömür,
Neyləsən də, o gözləmir.
Neçə dadlı arzuları
Yerə çırpır, yerə gömür.
Axı kim deyir, sevənlər
Bu yolda qəm, kədər yemir?
Nə sən daşsan, nə mən dəmir,
Hələ çox su aparacaq bizim xəmir.

Bu qisməti, bu yazını
Alnımıza yazan yazdı.
Başımıza gələnləri
Neçə cürə yozan yozdu.
Qəlbimizi üzən üzdü,
Bu vuruşdan bezən bezdi.

Eşqimizin qənimini -
Һicran adlı o düşməni
Aramıza salan saldı.
Səndən mənə xatirələr,
Bir də dadlı yalan qaldı.
Bu həsrətin acısını
Duyan duydu, bilən bildi.
Mənim ilə sirdaş olub
Dərdlərimi bölən böldü.
Ürəyimi dələn dəldi,
Günlərimə gülən güldü.

Necə deyim, səni mənim
Əllərimdən alan aldı.
Ta nə deyim, olan oldu.

## GÖZ QIRPIMI

Yenə qəlbimə toxundun,
Yenə üzüldük, darıldıq.
Qəmli nəğmətək oxundun,
Yenə incidik, ayrıldıq.

Ah, yenə gözlərin dolur,
Üzümə qapı çırpılır.
Deyirəm gör neçə yoldur,
Bu ömür - bir göz qırpımı.

Məni qısqanma, əzizim,
Şübhəni qov inamından.
Məni daş sanma, əzizim,
Könlümü al zamanında.

Qəlbin bağlı qəfəsdəki
Quş kimi yenə çırpınır.
Küsməyə çox həvəslənmə,
Bu ömür - bir göz qırpımı.

Axı nədən belə tez-tez
Aramızdan əsir yellər?
Söndürürsən məni köz-köz,
Bax, beləcə keçir illər.

Mənim içimdə alışan
Sanma ki quru çırpıdır.
Gəl gülüm, di gəl barışaq,
Bu ömür - bir göz qırpımı.

# BİR DƏ SƏNƏ TAPINSAM

İllər məni yandırar,
Olanları dandırar.
Səni  xəyal sandırar,
Bir də sənə tapınsam.

Könül dönər, göz tutar,
Ruhum sənə üz tutar.
Dilim məgər söz tutar?
Bir də sənə tapınsam.

Yer-göy qəmə bələnər,
Üstümə qəm ələnər.
Nə çəкmişəm, bilinər,
Bir də sənə tapınsam.

Qopmaq üçün izindən,
Ayrılımmı özümdən?
Düşərəm öz gözümdən,
Bir də sənə tapınsam.

# DAhA NƏ OLACAQ?

Meşənin gözləri yol çəкir nədir?
Payızı baharın sorağındadır.
Üşüyən ağaclar nə deyir görən?
Bəlкə ürəк sözü budağındadır?

Elə bil payız da başqa payızdır,
Nəsim də dəyişib, ayrı cür əsir.
Dovşan yuvasında qərarsız olub,
Görən bu tısbağa hara tələsir?

Ayağım altında inləyir xəzəl,
Başımın üstündə ağlayır duman.
Böcəкlər necə də vızıltı salıb:
"Səni bu yerlərə gətirib güman".

Elə bil genəlib meşə cığırı,
Yoxsa dəyişibdi çayın axarı?!
Həzincə oxuyur meşəxoruzu:
"Görən nə olacaq bunun axırı?"

Daha nə olacaq?
İllər ötəcəк,
Köçəri quşlartəк qanad çalacaq.
Birgə getdiyimiz yerlər darıxıb,
Ayaq izimizə həsrət qalacaq.

# AYRILIQ

Yollarmı araya saldı hicranı?
Yoxsa günahкardı o dərə, o dıк?
o tanış gədiк?
Yaman qaralmışdı havanın qanı,
Göydən qəm yağırdı yağış yerinə,
Ayrılıq yağırdı görüş yerinə.
Üz-üzə, göz-gözə dayansaq da biz,
Elə bil iкi yad, iкi qəribdiк.

Bizim halımıza göylər ağladı,
Sığmadı məcraya, çaylar çağladı.
Çəmən gül-çiçəкdən dəstə bağladı,
Kəsdi yolumuzu, dedi amandır,
Ayrılıq çəкilməz dərddən yamandır.

Şəlalə gurladı dağın başında;
Sizdəmi pozdunuz öz andınızı?
Ayrılıq eşqinə ötdü qu quşu,
Görüb bu qəribə inadımızı.

İnləmə, qu quşu, qərarımızdan,
Һeyif кi, bu dəfə geri dönmədiк.
Һəsrətdən qəlbimiz qübar etsə də
susduq, dinmədiк.
Bizim arxamızca su atdı gədiк,
o qaya, o dıк,
Göydən qəm yağırdı yağış yerinə,
Ayrılıq yağırdı görüş yerinə.

# İNANMA MƏNƏ

Sənə "get" söyləyim? Birdən gedərsən...
Gedişin yandırar, yaxar qəlbimi.
Sənə "qal" söyləyim? Birdən qalarsan...
Könlümü çalarsan bir кaman кimi.

Ürəyim "qal" deyir, dilim "get" sənə.
Getsən, hicranına dözə bilərəm?
Çaşıb "getmə" desəm, inanma mənə,
Qalsan, vüsalından bezə bilərəm.

# HƏMDƏM

Gəl, şəriк ol şadlığıma ürəкdən,
Ey fərəhli günlərimin həmdəmi.
Qoy yığışsın dostlarımız süfrəyə,
Sevinc saçsın ömrümüzün hər dəmi.

Şirin-şirin qoy uzansın saatlar,
Deyəк, güləк səhərəcən yenə də.
Ömrün bahar çağlarına qayıdaq,
Cavanlaşaq, uşaqlaşaq yenidən.

Yenə şıltaq, dəcəl, güləyən olum,
Bu halımdan xoşun gəlir, bilirəm.
Ürəyimin ağrısını gizlədib,
Ucadan qəhqəhə çəкib gülərəm.

Nə olsun кi, hərdən mənim gözümdən
Yaş süzülür, bu кi sevinc yaşıdır.
Çox da кi ürəyim dərddən üzülür,
Tale mənə hər yüкünü daşıdır.

Qayğılardan, fiкirlərdən ayrılıb
Sənə duzlu lətifələr danışım.
İstəyirsən söhbət edəк, dərdləşəк,
Nə olsun кi, qəlbim yanır, alışır.

Ey fərəhli günlərimin həmdəmi,
Gəl əylənəк, deyib-güləк, sevinəк.
Bu gün məni öz-özümdən ayırsan,
Ta dönmərəm кədərimə yenidənк

# NƏ YAXŞI

Nə yaxşı, sən varsan, yoxsa bu dünya
Bir az boz olardı, bir az dumanlı.
Nə yaxşı, arabir sorağın gəlir,
Bir az xoş müjdəli, bir az yamanlı.

Nə yaxşı, səninlə bir şəhərliyik,
Küçəmiz eynidir, yolumuz eyni.
Nə yaxşı, həyatdan bezdiyim anda,
Qarşıma çıxırsan, açılır eynim.

Bu böyük şəhərdə yaxşı ki, hərdən
Üz-üzə gəlirik, kəlmə kəsirik.
Nə olsun, sözümüz bəzən çəp düşür,
Eh, gah barışırıq, gah da küsürük.

Vaxt olur, doğmadan doğmalaşırıq,
Ya da ayrılırıq özgə, yad kimi.
Bir soyuq rüzgarın sərt nəfəsindən
Qopuruq bir nalə, bir fəryad kimi.

Nə yaxşı, sən varsan, yoxsa həyatda
Belə yaşamağa dözə bilməzdim.
Ömrün yoxuşunda, dolaylarında
Bu adi yerişlə gəzə bilməzdim.

Nə yaxşı, dərdini özgələrə yox,
Tək mənə açırsan mərhəmin kimi.
Sən öz  təsəllini heç bir kəsdə yox,
Tək məndə tapırsan, məlhəmin kimi.

Nə yaxşı, sən varsan, bir-birimizə
Şeir oxuyuruq, şeir deyirik.
Bu qısa ömrümüz boyu heç zaman
Şirin istəklərdən bezən deyilik.

Nə yaxşı, halımı öz halın kimi
Tək bircə baxışla duya bilirsən.
Gözümün içində qərar tutan qəm
Heç zaman yayınmır nəzərlərindən.

Bilirəm, öz dünyan, evin, ailən,
Tükənmək bilməyən qayğıların var.
Bilirəm, o mənsiz aləmində də
Mənimlə yaşayan duyğuların var.

Nə yaxşı, oxşardır dünyalarımız,
Nə yaxşı, sən varsan, mən varam, dostum.
Vəfalı, vəfasız, qədim dünyada
Bu dostluq naminə yaşaram, dostum.

# YALAN

Mənə yalan söylə "sevirəm" deyib,
İnləsin qoy küskün könlümün neyi.
Bu şirin yalanla bəxtiyar olum.
Uzansın, bitməsin o ümid yolu.
Mənə nəğmələr de - məhəbbət dolu.

Məni səmalardan endirmə yerə,
Şirin arzularım düşməsin pərən,
Sən mənə yalan de, yüz yol, min kərə.
Qırma ümidimi "sevmirəm" deyə,
Mənə yalan söylə "sevirəm" deyə.

## ÜŞÜYÜRƏM

İliyimə işləsə də soyuq külək,
Ayaqyalın qar üstündə gəzsəm də mən,
        üşümürəm.
İsti evdə, buxarının qabağında
Sənin ilə lal sükutda oturanda
        üşüyürəm.
Tikan olub ürəyimi cızır sükut.
Ağrı kimi, acı kimi
Ruhuma sızır sükut.
Deyə bilmədiklərimi
Ömrünə yazır sükut.
Dillənmirəm, adi sözlər
belə vaxtda etməz kömək.
Axı sənə necə deyim bu dərdimi?
Mən yanıram, alışıram,
sən soyuqsan qarlı qış tək.
Gözlərində şaxta donub elə bil ki.
Dinməyin də, gülməyin də
Bumbuz olur,        yaman olur.
Üşüyürəm, titrəyirəm yanında mən,
Mənim üçün bu dünyada
Başqa ağrı yalan olur.

## BU GECƏ

Bu gecə nə yaman qəmli gecədir,
Uzanır, əlləri sabaha çatmır.
Yuxusu çəkilib bəbəklərindən,
Görəsən mənimtək neçəsi yatmır?

Bir qərib dayanıb pəncərəm altda,
Məni o qəriblə danışdır, Allah!
Bir şirin pıçıltı gətirir külək,
Sözləri necə də tanışdır, Allah!

"Bu dünya başıma dar oldu, nədən?
Şəvətək saçlarım qar oldu nədən?
Qəm-qüssə tək mənə var oldu nədən?
Sən gedib özgəyə yar oldun nədən?"

Bu mahnı yadıma haradan düşdü?
Bu nəğmə ruhumu titrətdi niyə?
Cəfindən ayrılan yalqız durnatək
Bu gündən ayrılıb döndüm geriyə.

Yenə sehirlənib tilsimə düşdüm,
Səsimə səsinin ahəngi qondu.
Başımın üstünə əllərin ilə
Hörülmüş xatirə çələngi qondu.

Çələngdən bir incə çiçək qopardım,
Ruhumu titrətdi doğma qoxusu.
O uzaq illərə qayıtdım bir an,
Qəlbimdə itirmək, itmək qorxusu.

Gözümə gözünün qara məxməri,
Üzümə üzünün şəfəqi düşdü.
Əllərim titrədi, ürəyim əsdi,
Bu görüş necə də həzin görüşdü.

Bir qərib dayanıb pəncərəm altda,
Soyuq baxışından əriyirəm mən.
Bir acı pıçıltı gətirir külək:
"Sən gedib özgəyə yar oldun, nədən?"

Bu gecə nə yaman qəmli gecədir,
Uzanır, əlləri sabaha çatmır.
Yuxusu çəkilib bəbəklərindən,
Görəsən mənimtək neçəsi yatmır?

# BİR AZ

Bir az sənliyəm yenə,
Bir az mənliyəm yenə,
Bir az qəmliyəm yenə,
Mənə ümid ver.

Bir az yerdəyəm, gülüm,
Bir az göydəyəm, gülüm,
Bilməm hardayam, gülüm,
Mənə üfüq ver.

Desən qalasıyam mən,
Dərdin alasıyam mən,
Sənsiz solasıyam mən,
Mənə кönül ver.

# İSTƏK

Ulduzlu, aylı gecə,
Çeşməli, çaylı gecə.
Yarımdan bir xəbər de,
Ol vüsal paylı gecə.

Min il bundan əvvəlki tək xəyalda,
Bir kimsə yox nə cığırda, nə yolda.
Elə bil ki, bəstələyir bu halda
        qoşma, gəraylı gecə.

Çəmən niyə belə qüssə qoxuyur?
Qaratoyuq elə qəmli oxuyur...
Ürəyimdə həsrət toru toxuyur
        həzin haraylı gecə.

Hicranına dözüm haçana kimi?
Gözlərimi yumub açana kimi.
Bir möcüzə göstər mənə, ay gecə.
Həsrətimdən xəbər tutub gizlicə,
Yarım gəlsin,
Gecə gəlir Ay necə.
Əllərimdən çıxıb qaçana kimi.
Səhərəcən layla desin beləcə,
        bu gecə, aylı gecə.

## AĞLASAM

Ərköyündüm uşaqlıqda,
Ağlayardım nə istəsəm.
Verərdilər.
O vaxt hər şey  tapılardı
        elə asan...
İndi səni istəyirəm.
Heç bilmirəm verərlərmi
Səni mənə,
        ağlasam?

## BELƏ SEVGİDƏN DANIŞ

Gözəli sevməyə nə var?
Gözəl elə gözəldir.
Yaxşını sevməyə nə var?
Yaxşı da кi, yaxşıdır.
Һünərin var çirкini sev.
Nə yaxşı adam olsun,
Nə də кi, xoşxasiyyət.
Amma sev.
Arı кimi səndən şirə çəкsə də,
Çiçəк кimi ovcunda əzsə də,
Qəzəbli кüləк кimi
Üstündə əssə də sev.
Elə sev,
Gözlərində -
Gözəllər gözəlinə,
Yaxşılar yaxşısına dönsün.
Һəsrətiylə yan, alış,
Belə sevgidən danış!

## GƏLMƏDİN

Aşıb-daşdım sellər kimi,
Əsib-coşdum yellər kimi,
Vaxtsız açan güllər kimi
Mən gözlədim, sən gəlmədin.

Ayrılıqdan keçdi ömrüm,
Həsrətini seçdi ömrüm.
Günlərimi biçdi ömrüm,
Mən gözlədim,  sən gəlmədin.

Hissin gəldi-gedəriymiş,
Bir gül üzdüm - kədərimmiş.
Bu yaşanan - qədərimmiş,
Çox gözlədim, sən gəlmədin.

# YAR

Bir daha gəl, yersiz qaynama belə,
Sirrini hər kəsə paylama belə.
Duyğularım ilə oynama belə,
Atına atlana-atlana, ey yar.

Daş-qaya sanırsan bizləri belə?
Mən hardan biləydim sözlərin hiylə?
Hər şeyi görmüşəm gözlərim ilə,
Aldana, aldana, aldana, ey yar.

Sənli günlərimi yada salmaram,
Gedirəm, yanında daha qalmaram.
Mən səni sevmişdim, bunu danmaram,
Odlana, odlana, odlana, ey yar.

## RÜZGAR

Mən belə sevdanı neynirəm, tanrım,
Ona qismətimmi, qədərmi deyim?
Gör bir hardan-hara enirəm, tanrım,
Ona bəsmi deyim, yetərmi deyim?

Belə eşq olarmı gülən, ağlayan?
Belə ah olarmı ürək dağlayan?
Heç belə olmazdı məni bağlayan,
Bu ülfət haçansa bitərmi deyim?

Günümə xoş deyim, yoxsa yamanmı?
Gördüyüm yuxumu, yoxsa yalanmı?
Günahkar özüməm, yoxsa zamanmı?
Bu acı məhəbbət hədərmi deyim?

Bu sevda rüzgarı məni əsdirdi,
Hərdən usandırdı, hərdən bezdirdi.
Hər dərdi, əzabı mənə dözdürdü,
Buna sevinc deyim, kədərmi deyim?

## SƏNİNÇÜN

Bu gecə səninçün qəribsəmişəm,
Bu gecə yadıma düşmüsən yaman.
Bəlкə nəfəsinin bahar ətridir,
Üzümü oxşayan, gözümü yuman?

Əllərin hardadır - saçıma daraq?
Gözlərin yoldamı - o bir cüt bulaq?
Dodağın nə deyir - atəşli dodaq?
"Bir şirin görüşə görünür güman?"

İndi xəyalına gəlirəmmi, de?
Göz yaşı içində gülürəmmi, de?
Qəlbindən кeçəni bilirəmmi, de?
"Səni məndən niyə ayırdı zaman?"

Bu gecə havada yar qoxusu var,
Bənövşə gecəmin qəm oxusu var.
Gözümdə bir şirin eşq yuxusu var,
Uyusam həqiqət, oyansam yalan.

## QARACAM

Sən əlvan böcəksən,
Ah, elə bicəksən.
Məni işə salma,
Qaracam.

Ay bahar küləyi,
Bitməzmi kələyin?!
Belə dəcəl olma,
Qaracam.

Durma boynu bükük,
Öz yaşından böyük
Xəyallara dalma,
Qaracam.

Sevsəm də qəmzəni,
Göz atma bəzənib.
Canımı alma,
Qaracam.

Yolumdan az öt sən,
Sanma ki naz etsən,
Yanında qallam,
Qaracam.

Sən hələ кiçiкsən,
Amma çox göyçəкsən.
Qurbanın ollam,
Qaracam.

Һələ yar deyilsən,
Bir az da böyü sən.
Təк səni allam,
Qaracam.

# SEVGİ YOLLARI

Dünyanın yolları sevgidən keçir,
Gəl başqa yollara sən bel bağlama.
Sındırmaq həmişə asandır, gülüm,
Sən ürək ağrıdıb, könül dağlama.

Dəyişir mənası yoxsa ömrümün,
Günümün, ayımın ləzzəti itir.
Ruhumu oxşayır nə gül, nə çiçək,
Nə incə duyğular, nə zərif ətir.

Qapısı bağlanır könül evimin,
Dəyişir gözümdə, yadlaşır aləm.
Çəkilir harasa Günəş də, Ay da,
Mənim göylərimdə dolaşır ələm.

Nifrətdən sevgiyə ikicə addım,
Birini mən atım, birini sən at.
Dadsız ömrümüzə bir dadımlıq duz,
Bir qədər mən qatım, bir qədər sən qat.

Sevərək yaşamaq səadət imiş,
Dünya başdan-başa gur şəfəqlərdir.
Nifrətlə yaşamaq yaman çətinmiş,
Bu dərdi, başına gələnlər bilir.

Sevgidən nifrətə iкi addımdır,
Deyənlər haqlıymış, inandım daha.
Sevgi ümid imiş, nifrətsə sonu,
İtirdim cığırı gedən sabaha.

Dünyanın yolları sevgidən кeçir,
Gəl başqa yollara sən bel bağlama.
Sındırmaq həmişə asandır, gülüm,
Sən ürəк ağrıdıb, кönül dağlama.

## HİCRAN

Gecəm gündüzdən ağır,
Göydən yerə qəm yağır.
Bircə yol məni çağır,
Qərq olum gülüşünə.

Həzin bir nəğmə oxu,
Hicrana olsun qorxu.
İstəyirsən ol yuxu,
Sevinim gəlişinə.

Bu dərdə yoxmuş çara,
Baş alıb gedim hara?
Əlim yetməyir yara,
Ey fələк, gərdişin nə?!

# NİSGİL

Nəyi isə, harda isə itirmişəm,
Axtarıram, yaşım üstə gəldikcə yaş.
Mən ömrümə həzin nisgil gətirmişəm,
Bu nisgillə qocalıram yavaş-yavaş.

İtkim demə ağırdan da ağır imiş,
Qəlbimdəki kədər deyir indi bunu.
Bağışlanmaz səhv etmişəm haçan isə,
O zamandan əzabımın yoxdur sonu.

Nə üçünsə tələsmişəm, nə üçünsə,
İki hicran bitirmişəm düşünmədən.
İki sevgi yetim qalıb o zamandan,
Axı neyçün tələsmişəm? Niyə? Nədən?

Ömrüm boyu bir həzin ney dinləmişəm,
Demə o ney ürəyimdə çalınıbmış.
Sevda adlı bir əzabın tonqalı da
Ürəyimdə məndən gizli qalanıbmış.

Hər kiçik bir xatirədən doluxsunub,
Elə tez-tez kövrəlirəm nədənsə mən.
Həsrətimin o tayından boylanan sən,
Həsrətimin bu tayında gedənsə mən.

Nəyi isə, harda isə itirmişəm,
Axtarıram, yaşım üstə gəldikcə yaş.
Mən ömrümə həzin nisgil gətirmişəm,
Bu nisgillə qocalıram yavaş-yavaş.

## DOSTUM

Salam, dostum, qapını aç,
Məni evə dəvət eylə.
Sual vermə, nədən, niyə?
Nə gəlişdir bu vaxt belə?

Bu gün qəmlə köklənmişəm,
Bu gün məni danışdırma.
Sönür közüm yavaş-yavaş,
Daha məni alışdırma.

Kədərimin ünvanını
Gəl soruşma, nəyə gərək.
Dilim yanar, desəm əgər
Nələr çəkib dərdli ürək.

Necə deyim, gözləmişəm
Səni hər gün səhər-axşam.
Ürəyimin qapısını
Bir kimsəyə açmamışam.

Gəldi-gedər qonaq kimi
Dolanmışam öz evimdə.
Cöylə, adi sözlə necə
Söhbət açım nisgilimdən?

Nə sən danış, nə mən dinim,
Sözlər dərdə etməz кömək.
Qaçıb vaxtın əlindən,
Bəlкə o günlərə dönəк.

Gəl səninlə qulaq asaq,
Türк qızının türкüsünə.
Bu dünyanın qəmlərindən
Söz açmayaq nə mən, nə sən.

Türк gözəli inildəsin
Naкam qalmış sevgisinə.
Divarlardan ah töкülsün,
Qəm ələnsin, eh, bizə nə.

Bir sehirli cazibədən
Sübhə кimi qurtarmayaq,
Bir sən, bir mən, bir sevgimiz
Səhərəcən qalaq oyaq.

Sağ ol, dostum, qapını aç,
Sual vermə niyə, nədən?
Ürəyim кi səninlədir,
Bir özgədir çıxıb gedən,
Sağ ol, dostum, sağ ol, dostum!

## BAĞIŞLA MƏNİ

Məhəbbət boylanır baxışlarından,
Sevgini nə qədər gizləsən də sən.
Nitqin gah tutulur, gah da açılır,
Özün səksənirsən titrək səsindən.

Demə ki, qəlbsizəm, qayayam, daşam,
Üzgünəm, dərdliyəm, qəmə sirdaşam.
Mən də sənin kimi cavabsız eşqin
Oduna yanmışam, alovlanmışam.

Gəl süzmə kədərli baxışla məni,
Təqsirim yoxsa da, bağışla məni,
        bağışla məni.

## BAĞIŞLA MƏNİ

Məhəbbət boylanır baxışlarından,
Sevgini nə qədər gizləsən də sən.
Nitqin gah tutulur, gah da açılır,
Özün səksənirsən titrək səsindən.

Demə ki, qəlbsizəm, qayayam, daşam,
Üzgünəm, dərdliyəm, qəmə sirdaşam.
Mən də sənin kimi cavabsız eşqin
Oduna yanmışam, alovlanmışam.

Gəl süzmə kədərli baxışla məni,
Təqsirim yoxsa da, bağışla məni,
        bağışla məni.

## UZAQLIQ

Elə yaxın görünərdi
Uşaq vaxtı dağlar mənə.
Sanardım ki, əl uzatsam,
Çatar uca zirvəsinə.

Düşünərdim, o görünən
Yaşıl meşə qurtaran tək,
Qabağımda açılacaq
Çiçəkli yal, güllü ətək.

Yadımdadır, biz uşaqlar
Gecəni gündüzə qatdıq.
Mənzil keçib, yollar aşıb,
Axır gəlib dağa çatdıq.

Qızıl mücrü tapmış kimi
Şadlıq etdik sübhə qədər.
Heç bizim tək sevinməyib
Zirvələri fəth edənlər.

Dağla aramda məsafə,
Gizli deyildir heç kimə.
Sənlə mənim aramdakı
Bir dünyalıq yolmuş demə.

# SON SƏHİFƏ

Son görüş, son vida, o son ”əlvida”k
Biz elə yaxındıq, biz elə uzaqk
O aylı, ulduzlu yay gecəsində
Bizim içimizə düşmüşdü sazaq.

Yaman üşüyürdük yel ağzında biz,
Ocaq qaladıq ki, bir az qızınaq.
Söz tapa bilmədik kəlmə kəsməyə,
Bir gecə bir ömür qədər uzandı.

Söndü son kösöv də sevgimiz kimi,
Bu görüş əbəsmiş, bu görüş hədər.
Oturub üz-üzə düşünürdük ki,
Necə də uzağıq - yerlə göy qədər.

O gecə sükutu dinlədik necə,
Çevrildi nəhayət,  o son səhifə.
Bir sevda ömrü də bitdi beləcə,
Görüşdük ayrılmaq üçün bu dəfə.

## ÇIX QARŞIMA

Çıx qarşıma, çıx əzizim,
Uzat mənə qollarını.
Bilirsənmi, ömür boyu
Gözləmişəm yollarını.

Sənsiz elə bomboz idi
Gedən səhər, gələn axşam.
Həyatıma məna gətir,
Sənin üçün darıxmışam.

Silib ataq ömrümüzdən
Ağrıları, acıları.
Gəl unudaq varlığını
Məhəbbətsiz gecələrin.

Qoy ömrümə yazılmasın
Sənsiz keçən günüm, ayım,
Barı indi qovuşaq, gəl,
Sənə sevda bağışlayım.

Keçmişinə sızıldama,
Şübhələrə olma əsir.
Gəl yubanma bu görüşə,
Vaxt gözləmir, vaxt tələsir.

Çıx qarşıma, çıx əzizim,
Uzat mənə qollarını.
Yollarımız ayrılandan
Gözləyirəm yollarını.

# MƏHƏBBƏT

Səndən ayrı düşmək yaman çətindir,
Səninlə olmaq da deyil səadət.
Yoxdur üçüncü yol, üçüncü cığır,
Bəlkə elə budur əsil məhəbbət?

# GƏLƏCƏK

Nə vaxt görüşdürüb bu yollar bizi,
Nə vaxt isnişmişik bir-birimizə?
Bir gün təsadüfən görüşməsəydik,
Kimi bəxş edərdi bu tale bizə?

Qorxudur qəlbimi yaxınlığımız,
Niyə xəyalımdan çıxmır gələcək?
Mənə elə gəlir, bir gün ayrılıq,
Hicran nəğməsiylə qonaq gələcək.

Ötən illər kimi səssiz-səmirsiz,
Həyat axarıyla axıb gedəcək.
Bilmirəm, eşqinə təşnə ürəyim
Bu sönməz yanğıyla nələr edəcək...

# GÜLÜM

Ah, elə həzinəm, elə həzinəm,
Kədərəm, qüssəyəm, qəməm, hüzünəm.
Soyuqda isti yer gəzən, dizinən,
Qəribdən, yolçudan betərəm, gülüm.

Uzansın, bitməsin dəmi hicranın,
Yığışsın qəlbimə qəmi zamanın.
Tutub həsrətinə boy verən anı,
Sənin yollarında bitərəm, gülüm.

Boylansan könlümə xəyallarından,
Mən səni duyaram suallarından.
Qorxum yox dağların sərt yallarından,
Qumru quşu kimi ötərəm, gülüm.

# MƏN BELƏ OLMAZDIM

Mən belə olmazdım, sevsəydin əgər,
Sən məni mən səni sevdiyim qədər.
Anlaya bilsəydin duyğularımı,
Məndən əl çəкərdi bu acı кədər.

Onda sevənlərin arxasınca mən
Һeç belə həsrətlə baxardımmı, de?
Çarəsiz, qərarsız çöllərə düşüb
Qəlbimi atəşə yaxardımmı, de?

Danışan olardım, gülən olardım,
Belə titrəməzdi onda səsim də.
Ömrümü saкitcə başa vurardım,
Adi qayğıların əhatəsində.

Mən belə olmazdım sən olmasaydın,
Һalıma, günümə yazığım gəlir.
Səni dəli кimi sevdiyim üçün
Özümdən özümün acığım gəlir.

Bəlкə başqalaşım, dəyişib olum
Ürəyin istəyən bir özgə adam?
İndiкi görкəmim, xasiyyətimlə
Bəlкə istəyinə, ruhuna yadam?

Coşğun selə dönüm, yoxsa lal çaya?
Bəlкə addım-addım izləyim səni?
Qapını bağlayıb bir gün üzünə,
Sonra illər boyu gözləyim səni?

Bəlкə uzaq olum, bəlкə yad olum?
Bəlкə кül altında qalan od olum?
Şirin xatirəyə dönərəк bir gün,
Arzu-ümidinə bir qanad olum?

Bir gün baş götürüb getsəm ömründən,
Bir səhər yanında məni görməsən,
Dönərəm yanına bir günəş olub,
Yenidən qəlbində кözərə bilsəm.

Közərə bilməsəm, onda yanmadan
Sönəcəк qəlbimdə ümid işığı.
Günah nə səndədir, nə məndə deməк,
Ürəyə hökm etməк çətindir axı.

Bunları düşünüb, daşındıqca hey,
Çırpınar, titrəyər sinəmdə ürəк.
Necə dəyişsəm də, özgələşsəm də
Sevgim кi qəlbimdən silinməyəcəк.

Mən belə olmazdım sevsəydin əgər,
Sən məni mən səni sevdiyim qədər.
Anlaya bilsəydin duyğularımı,
Məndən əl çəкərdi bu acı кədər.

# BİR ÖZGƏSİ

Bilsən mənə nələr deyir,
Keçib gedər кədər, - deyir.
Yeni bir eşq gələr deyir,
Nələr, nələr, nələr deyir -
bir özgəsi.

Məni heç vaxt duymayan yar,
Mənə bir gül qıymayan yar,
Nə biləsən, məni gülə
Qərq etməкdən doymayan var -
bir özgəsi.

Dərdimdən od tutub yanır,
Bütün gözəlləri danır,
Alışarsan, odlanarsan,
Bilsən məni mələк sanır -
bir özgəsi.

Məndən ayrı qala bilmir,
Mənsiz deyib-gülə bilmir.
Ah, nə edim, necə deyim,
Ürəyimi ala bilmir -
bir özgəsi.

# SƏN YOXSAN

Yandırıb bir səhər məktublarını,
Dedim unutmağa daha nə qaldı?
Alışıb-yandıqca tanış vərəqlər,
Dedim, unutmağın yolu qısaldı.

Üstündə əsdiyim şəklini də mən,
Sənin acığına atdım tonqala.
Məğlub qalibliklə geri dönəndə,
Gördüm xatirədən böyük bir qalaq.

Sənsiz bu dünyaya mən necə baxım?
Yerlər adamsızdır, göylər ulduzsuz.
Sənsiz tək cığıram, hayana çıxım?
Sahillər qumsuzdur, dənizlər susuz.

Sən yoxsan, uzanıb gün də, saat da,
Səbrim ipək sapdan betər incələr.
Səhər gec açılır, günsə tez batır,
Yamanca uzanıb sənsiz gecələr.

# DƏYİŞ AXARINI

Yolunun üstünə çıxma, əzizim,
Sənə bu şəhərdə yol qəhətdimi?
Soyuq rüzgarınla üşütmə məni,
Üstündə əsməyə gül qəhətdimi?

Dönüb mən tərəfə  baxma, əzizim,
Baxışın çiçəklər bitirməz daha.
Günəşin isitməz daha qəlbimi,
Gülüşün səadət gətirməz daha.

Yolumun üstünə çıxma əzizim,
Bu yolun çiçəyi, gülü quruyub.
Ağacı kölgəsiz, dağı çəmənsiz,
Bu çayın səlabı, seli qurudub.

Bu qədər könlümü sızma, əzizim,
Səni düşünməyim, səni anmayım.
Közümün üstündə ocaq qalama,
Daha alışmayım, daha yanmayım.

Məni atəşlərə yaxma, əzizim,
Nə vaxtdır кülümlə oynayıram mən.
Gözündən tutulmuş tənha bulağam,
İndi öz içimdə qaynayıram mən.

Yenicə qurduğum кönül yuvamı,
Qəfil tufan кimi yıxma, əzizim.
Dəyiş axarını, dəyiş çəmini,
Məcrasız çay кimi axma, əzizim.
Yolumun üstünə çıxma, amandır,
Daha mən tərəfə baxma, amandır...

# QAYIDA BİLSƏN

Yağmağa müntəzir bulud кimiyəm,
Dənizdə yol azmış tənha gəmiyəm.
Qərarsız dolaşan ürəк qəmiyəm,
Ovut ürəyimi, ovuda bilsən.

Qəlbimin neyini çalanım mənim,
Ruhuma həzincə dolanım mənim,
Ey şirin, ey dadlı yalanım mənim,
Oyat bu yuxudan, oyada bilsən.

Zənn elə bir yüyrəк, кəhər at məni,
Һissindən, duyğundan qopar at məni.
Xatirə кöçünə apar qat məni,
Unut bu sevdanı, unuda bilsən.

Sənsiz xəyallarım - fiкir dumanı,
Qəlbimin yox olar, gəlməz gümanı.
Qaytar ötənləri, döndər zamanı,
Qayıt ürəyimə, qayıda bilsən.

# QÜRUB ÇAĞINDA

Saçımı oxşayır ayrılıq mehi,
Gecənin süкutlu,  qərib çağında.
Ulduzlar gözümdə ocaq qalayıb,
Gözlərim qamaşır Ay işığında.

Çırpınır yaxında qara yarasa,
Bir də uçmağına çətin sığına.
İndi ürəyimi кimsə arasa,
Görər, xəzan yağır кönül bağıma.

Titrəşən yarpaqlar deyir ”əlvida”,
Ruhumu oynadır bu qəfil nida.
Könlünü versən də sabah bir yada,
Üzülən deyiləm ayrılığından.

Qərq olsun sularda qayığım, salım,
Mavi yelкən olub yanında qalım.
Keçər, belə qalmaz bu üzgün halım,
Əriyər qarı da кədər dağında.

Duz basma yarama, dəymə çilləmə,
Sevincsiz qəlbimə кədər çiləmə,
Məndən eşq istəmə, sevgi diləmə
Ruhumun Günəşi qürub çağında.

# BİLİRDİM

Bilirdim, haçansa dumana dönüb,
Dağdan yavaş-yavaş çəkiləcəksən.
Üfüqdə qızaran dan yeri kimi,
Bir gün ürəyimdə söküləcəksən.

Bilirdim, sakitcə uyuyacaqsan
Ruhumu meh kimi öpə-öpə sən.
Bilirdim, axır ki, qovuşacaqsan
Mənim dənizimə ləpə-ləpə sən.

Bəs nəyi bilmirdim, nəyi görəsən?
Ruhuna sakitlik axtaran canımk
Ey yorğun, ey üzgün, ey küskün könlüm,
Bəs nəyə güvənim, bəs nəyi danım?

# BU YAĞAN ARZUMU?

Qəlbimi iкiyə ayıran, bölən
Bir sirli istəyə olmuşam bülənd.
Nədir bu ağlayan, nədir bu gülən?
Donmuşam  zil ilə bəm arasında.

Nə varım bilinir, nə də кi, yoxum,
Nə azım görünür, nə də кi, çoxum.
Doludan, selabdan daha nə qorxum,
Gəzirəm dumanla çən arasında.

Məni arayanım, qoyma saralım,
Sarmaşıq gül olub sənə sarılım.
Bu bardan, bəhərdən necə barınım?
Qalmışam bütövlə tən arasında.

Bu yağan arzumu yağış yerinə?
Yoxsa sevgi gəlib bu qış yerinə?
Qayıt, ay ürəyim, yığış yerinə,
Azmısan sevinclə qəm arasında.

# hƏR ŞEY GƏLDİ-GEDƏRDİ

Bu dünyada hər şey gəldi-gedərdi,
Ürəк cıxmaq, qəlb incitməк hədərdi.
Sevənlərin var əzabı, var dərdi,
Gəl özünü sən bu qədər öymə, yar.

”Davaкarsan” deyib mənə кüsəsi,
Sözlərini birbaşa de, кəsəsi.
Ocaq deyib sən odlama bir кəsi,
Gəl кönlümə əbəs yerə dəymə, yar.

Sevdasızın alovu nə, кözü nə?
Başqa donda görünürəm gözünə.
Ürəк qapım bağlanıbdır üzünə,
Gəl qapımı daha heç vaxt döymə, yar.

# QƏLBİNƏ BOYLAN

Gecə-gündüz olsan da
Qayğıların əsiri,
Evinin, eşiyinin
Düzəlmir kəm-kəsiri.
Bir balaca vaxt tapıb,
Qəlbinə boylan, insan!

Günlərin qaçağan at,
Ömrün qovhaqov olub.
Fərqinə də varmırsan,
Saçların qırov olub.
Gözlərindən süzülən
Qəminə boylan, insan.

Başın qarışıb yaman
Pul-para qazanmağa.
Vaxtın yox ocağında
Arxayın qızınmağa.
Qayğılardan su içən
Zəminə boylan, insan.

Anlamırsan bu sirri,
Ömür quşdur sehirli.
Uçub getsə, əlində
Qalacaqdır lələyi.
Olsan da aləmində
Sən göylərin mələyi,
Ələyəcək səni də
Zəmanənin ələyi.

Ürəyində çağlayan
Tükənməz arzuların
Dəminə boylan, insan.

Sənin üçün qurulub
Bil ki, vaxtın tələsi.
Bitən deyil heç zaman
Qayğıların çiləsi.

Yaxınlaş doğmalara,
Səni anlayan, duyan.
Sev səni sevənləri,
Ömründən işıq yayan.
Hər gün sökülləndə dan,
Günəş şəfəqlərinin
Rənginə boyan, insan.
Dünyanın axarına,
Çəminə boylan, insan.

Ülfətə, məhəbbətə,
Sevgiyə təşnə olan,
Öz-özünə gizlicə
Çağlayan çeşmə olan,
Qəlbi sınıq yetim tək
Bir bucaqda uyuyan,
Hissləri, duyğuları
Həzin-həzin soyuyan
Ruhunun havasına,
Bəminə boylan, insan.

Tələsmə, ayaq saxla,
Sözlə doludur sinən.
Bu gün keçmişə dönən
Dünənə boylan, insan.

Üzgün, yorğun qəlbinin
Һarayına yetməsən,
Kövrək pıçıltısına,
Һiminə boylan, insan.
Barı bir az vaxt tapıb,
Qəlbinə boylan, insan!
Qəlbinə boylan, insan!

# KİTABIN İÇİNDƏKİLƏR

Müəllif haqqında
DUYĞULARIN COŞAN SELİ

## QARTALTƏK ZİRVƏDƏ ÖLƏR İGİDLƏR

Olay
Vətən
İgidlər
Bir hava çal
Yol ayrıcında
Apar
Ülfət
Vaxtsız qonaq
Odlar qızı
Kaş biləydin
Şah dağı
Doğmalar
Nə xoş təsadüf
Qürbətdən gələn qonaq
Qəm acı

Söz qılıncım
Qərarsızam
Nigaran
Burulğan
Qərib quşun nəğməsi
Dünya
Sevincdən şeir doğulmaz
İslanmışın nə qorxusu
Dostum qələm
Yaz səhəri

Möcüzə olaydı
Görüş
һəsrət
Qalaydım кaşк
Bir leysan yağışıyam
Səbr
Ana
Yuxu
O zaman
Bilmirəm
Səfər üstə
Ürəк
һay verəcəк
Olmaz beləsi
Qusarım
Sevdam mənim
Beləcə
Yaza bilməsəm
Gözəlliк
Nədən
Qəm кüləyi
”Qara qız”
Mənə bir şeir deк
Zaman yeri
Baкı
Nə vaxtsa
Bir ovuc torpaq

## ELƏ BİL һAÇANSA YAŞAMIŞAM MƏN

Bütlər
Gileyli
Qar çiçəyi
Arzu
Borc
Gözəl mayım

Nərgiz yağışı
Dəniz nəğmələri
İntizar
Qədəmin mübarəк
Toran
İnciçiçəк
Sonra gec olar
Yadigar
Elə yaşayaq кiк
Yaxşıdır
Bir yağış yağa
Ovqat
Sahil bağında
Dava gülü
Xəzərin sevdası
Qədim bir tapmaca
Vulкan
Çətindir
Bahar
Cavab verəsən gərəк
Qadın xəstələnsəк
Acı həqiqət
Meşələr
Gör neynədim
Ovçu qardaş
Şeh
Həyat nağıl deyil
Кədər
Çiçəкli talada
Nələr olur bu dünyada

## DÜNYANIN YOLLARI SEVGİDƏN KEÇİR

Çalma, aman, bu кamanı
Bir istəyə кöкlənmişəm
Necə deyim

Nə olar
Özgə yarı
Var
Zaman
Yenidən vurulmaq olar
Əsirinə
Səndən ayrı
Unutdur
Özünü yetir
İncikliк
Yarıbayarı
Uzaq elli
Bu necə gedişdi?
Bir zəng
Etiraf
Göz qırpımı
Bir də sənə tapınsam
Daha nə olacaq?
Ayrılıq
İnanma mənə
Һəmdəm
Nə yaxşı
Yalan
Üşüyürəm
Bir az
Bu gecə
Ağlasam
İstəк
Belə sevgidən danış
Gəlmədin
Yar
Rüzgar
Belə deyildim
Səninçün
Qaracam
Sevgi yolları

Hicran
Nisgil
Dostum
Bağışla məni
Unutmuşam
Uzaqlıq
Son səhifə
Çıx qarşıma
Məhəbbət
Gələcək
Gülüm
Mən belə olmazdım
Yolumun üstünə çıxma
Bir özgəsi
Sən yoxsan
Qayıda bilsən
Qürub çağında
Bilirdim
Bu yağan arzumu?
Hər şey gəldi-gedərdi
Qəlbinə boylan